RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 183 (8499) CÜMƏ, 11 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Vətəndaş maraqlarına xidmət edən mütərəqqi sosial müdafiə sistemi

## İlham ƏLİYEV: “Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”

Sosial tərəqqi, həyat səviyyəsinin hər hansı göstəricisini əsas götürərək cəmiyyətin inkişafı barədə fikir yürütmək olar. Hər bir cəmiyyət öz məqsəd və vəzifələrinə uyğun sosial siyasəti formalaşdırır və həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını bəyan edir. Dünyada baş verən ictimai, iqtisadi və digər inkişaf reallıqları sosial siyasətin məzmununun, mahiyyətinin zənginləşməsində böyük əhəmiyyət kəsb edir. Sosial siyasətin qarşısında qoyulmuş məqsədlərə nail olmaq üçün onun həyata keçirilməsi mexanizminin böyük əhəmiyyəti var. Bu mexanizmin əsas təkanverici amili iqtisadi inkişafdır. Çünki iqtisadiyyatda uğur qazanmadan, maliyyə imkanlarına nail olmadan sosial siyasəti lazımi səviyyədə həyata keçirmək mümkün deyil.

### Sosial siyasətin mərhələlər üzrə təhlili reallığı düzgün qiymətləndirmək, gələcək hədəflərin müəyyən edilməsi baxımından çox vacibdir

Gələn ay Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 29-cu ili tamam olur. Bu, bir dövlətin tarixi üçün uzun zaman kəsiyi deyil. Amma bu dövrdə Azərbaycanın müstəqil dövlət kimi qazandığı nailiyyətlər olduqca möhtəşəmdir. Ən mühümü odur ki, Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində yaşanan məlum proseslər fonunda Azərbaycanda sosial sferada baş qaldıran problemləri orta və yaşlı nəsil yaxşı xatırlayır. Yeni formasiyaya keçid bütün sahələrdə olduğu kimi, sosial sferada da zamanın tələblərinə uyğun addımların atılmasını tələb edirdi. Lakin həmin dövrün məlum hadisələri əhalinin sosial müdafiəsi məsələsini arxa plana keçirmişdi. Büdcə boş idi, əməkhaqlarının, pensiyaların verilməsində kifayət qədər ciddi problemlər vardı, ödənişlər aylarla gecikirdi, ərzaq qıtlığı, qiymətlərin misilsiz dərəcədə artması, dördrəqəmli inflyasiya həyat səviyyəsini dəfələrlə aşağı salmışdı. Ağır iqtisadi böhran sosial tənəzzülü getdikcə daha da dərinləşdirirdi... Bu gün isə vəziyyət tamamilə başqadır.

Dövlətin sosial siyasəti dövrün çağırış və tələblərinə uyğun olaraq, mərhələ-mərhələ təkmilləşib. Hər mərhələdə mühüm işlər görülüb, vətəndaşların sosial rifahına xidmət edən tarixi addımlar atılıb. Ona görə də bu mərhələlərin hər birinin təhlili, elmi qiymətləndirilməsi vacibdir. Çünki bu zaman hər bir mərhələdə görülmüş işləri xatırlamaqla, mahiyyətini düzgün dəyərləndirməklə yanaşı, bu sahədə perspektiv üçün əsas hədəfləri müəyyən edə bilərik.

### Heydər Əliyev əhalinin sosial şəraitinin daha əsaslı yaxşılaşdırılmasını strateji vəzifə kimi qiymətləndirirdi

Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə ölkənin inkişaf tarixində tamamilə yeni səhifə açılmasından sonra əhalinin üzləşdiyi problemlər ön plana çəkildi, onların məntiqi ardıcıllıqla həlli istiqamətində görülməsi vacib olan tədbirlər müəyyənləşdirildi. Gənc müstəqil dövlətin təcrübəli başçısı mövcud iqtisadi reallıqlardan çıxış edərək ən vacib ehtiyacları ödəmək üçün müvafiq addımlar atırdı ki, ölkədə sosial gərginliyi azaltmaq mümkün olsun. Heydər Əliyevin bu xüsusda hələ 1994-cü ildə verdiyi fərmanlar ayrıca diqqət çəkir. Bunlardan biri “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında” 1994-cü il 15 iyun tarixli fərmandır. Bu sənədin əsas məqsədlərindən biri yüksək inflyasiyanın qarşısının alınmasına yönəlmişdi ki, bu da həmin dövr üçün olduqca vacib əhəmiyyət kəsb edirdi. Fərmandan irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsinə nail olmaq və yol verilən bəzi qüsurların aradan qaldırılması üçün Heydər Əliyev “Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” 1994-cü il 24 oktyabr tarixli növbəti sənəd imzaladı.

Ardı 4-cü səh.

# Qazax rayonunda yerli əhəmiyyətli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qazax rayonu, Y-35-06 (13 km) Fərəhli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 2,2 milyon (iki milyon iki yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2020-ci il*

# Ağdaş rayonunun Qobuüstü-Yuxarı Nemətabad-Hacılar-Aşağı Nemətabad-Yenikənd-Qəribli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altı min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Qobuüstü-Yuxarı Nemətabad-Hacılar-Aşağı Nemətabad-Yenikənd-Qəribli avtomobil yolunun tikintisi məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 16,4 milyon (on altı milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2020-ci il*

# Həlledici qərarların yüksək səviyyədə icrası ölkəmizdə virusu nəzarətolunan həddə endirib

## Qarşıda duran ən mühüm vəzifə isə əldə olunmuş uğurun qorunub saxlanması və möhkəmləndirilməsidir

Dünyada COVID-19 infeksiyasından təsdiqlənmiş ölüm hallarının sayı 900 mini keçib, koronavirusa yoluxma sayı isə 28 milyondan çoxdur.

Təəssüfləndirici reallıqdır ki, bir ilə yaxındır “taclı” bəlaya qarşı görülən bütün tədbirlər təsirsiz olub və virusun yoluxma sürətinin, aldığı canların qarşısına keçə bilməyib.

Tibb elmi isə tez bir zamanda COVID-19-un vaksini ilə bağlı ümidverici nəticələr ortaya qoymaq üçün cidd-cəhdlə çalışır və bu istiqamətdə bəzi ölkələrdə artıq müsbət nəticələr əldə olunduğu da bildirilir.

Azərbaycan dövləti tərəfindən də qlobal böhranla hərtərəfli mübarizə aparılır. Ölkəmiz pandemiyanın yayılmağa başladığı ilk günlərdən bu bəlaya qarşı həlledici tədbirlərə start verib. Virusun kütləvi yayılmasının qarşısını almaq, vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədilə lazımi işlər vaxtında və operativ şəkildə həyata keçirilib və bu davam etdirilir. Qısa zamanda səhiyyə infrastrukturunun koronavirusla mübarizəyə istiqamətləndirilməsi isə pandemiyanın mümkün fəsadlarını minimuma endirib.

Ardı 5-ci səh.

# Cari ilin 8 ayında əhalinin sosial müdafiəsinə əlavə 782,7 milyon manat vəsait xərclənib

## Beynəlxalq təşkilatlar da pandemiya dövründə dövlətimizin həyata keçirdiyi sosial siyasəti təqdir edir

Koronavirus pandemiyası insanları təkcə sağlamlığı ilə imtahana çəkmədi. Bu xəstəlik dünya əhalisini ciddi sosial problemlərlə də üz-üzə qoydu. Hətta güclü iqtisadiyyata malik olan ABŞ-da 50 milyondan çox insan işsiz qalıb.

Məlumdur ki, işsizlik insanların sosial sıxıntılarına səbəb olan başlıca faktordur. Dünya iqtisadiyyatına inteqrasiya olunan Azərbaycan iqtisadiyyatı da bu bəladan müəyyən qədər əziyyət çəkir. İxracatımızın əsasını təşkil edən neftin qiymətinin dünya bazarında aşağı düşməsi isə bu sahədə əlavə çətinliklər yaradır.

Prezident İlham Əliyev tərəfindən aparılan düzgün siyasət nəticəsində ölkəmizdə böyük miqdarda valyuta ehtiyatı yaradılıb. Bu səbəbdən də Azərbaycan iqtisadiyyatı ayaqda qala bildi. İkincisi, dövlət başçısı tərəfindən həyata keçirilən ölkənin hərtərəfli inkişaf strategiyası da öz bəhrəsini verdi. Belə ki, qeyri-neft sektorunun inkişafı daxili tələbatın ödənilməsində mühüm rol oynamağa başladı. Beləliklə, ölkədən külli miqdarda valyuta axınının qarşısı alındı, üstəlik, uzaqgörənliklə həyata keçirilən siyasət sayəsində bir sıra məhsulların ixracının artması əlavə valyutanın qazanılmasına imkan yaratdı.

İqtisadiyyatımızın sağlam təməllər əsasında inkişafı bu gün dövlətimizə əhalinin sosial problemlərinin həlli üçün geniş imkanlar açır. Dünyada koronavirus pandemiyası ilə əlaqədar bir sıra sosial layihələr dayandırılıb. Lakin Prezident İlham Əliyev bəyan etdi ki, biz heç bir sosial layihənin icrasını təxirə salmayacağıq.

Ardı 5-ci səh.



# Azərbaycan qazının TANAP-la Avropaya test rejimində nəqlinə başlanıb

## Gələn ilin birinci rübündə TAP-ın da tam gücü ilə fəaliyyət göstərəcəyi bildirilir

Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağından çıxarılan təbii qazın Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Avropaya test rejimində nəqlinə başlanıb.

Qaz Türkiyə-Yunanıstan sərhədində TANAP-a birləşən Trans-Adriatik Qaz Boru Kəməri (TAP) ilə Adriatik dənizinin altından keçəcək və İtaliyaya qədər çatdırılacaq. TAP-ın 2021-ci ilin birinci rübündə tam gücü ilə fəaliyyət göstərəcəyi bildirilir.

TAP “Cənub qaz dəhlizi”ni yaradan üç mühüm kəmərin sonuncusudur. Hazırda çəkilişi başa çatmaqda olan bu kəmər Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq. TAP-ın növbəti uğuru layihənin indiyə qədər keçdiyi yola bir daha nəzər salmağı gündəmə gətirir.

Ardı 4-cü səh.

# Müxalifət «Nikolsuz Ermənistan» etiraz kampaniyasına başlayır

## İşğalçı ölkədə ictimai-siyasi vəziyyət daha da gərginləşir

Bu ilin ötən dövrü ərzində pandemiya fonunda Ermənistanda sosial-iqtisadi müstəvidə vəziyyətin daha böyük sürətlə pisləşməsi müşahidə edilməkdədir.

Erməni mediası yazır ki, real vəziyyət Nikol Paşinyan iqtidarının yarıtmaz siyasətinin, ölkənin inkişafı naminə hansısa uğurlu addım ata bilməməsinin konkret göstəricisidir. Yazılır ki, ötən dövr ərzində baş nazir xalqı yox, yalnız özünü düşündüyü üçün Ermənistan acınacaqlı vəziyyətdə yaşayır. Bunun real təsdiqi kimi qeyd olunur ki, son iki ildə Emənistanda korrupsiya faktları dəfələrlə artıb.

Bildirilir ki, korrupsiya nəticəsində hakimiyyət təmsilçilərinin var-dövləti artdığı halda, sadə əhalinin güzəranı daha da pisləşib. Ermənistanın borcları sürətlə artır, əhalinin rifahı aşağı düşür, ölkənin xarici iqtisadi asılılığı güclənir. Məlum olur ki, Ermənistan qarşıdakı dövr ərzində də sosial, siyasi və iqtisadi problemlərdən yaxa qurtara bilməyəcək. Bunun, həmçinin əsas səbəbi müxalifətin Nikol Paşinyana qarşı birləşməsidir.

Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan deyib ki, Nikol Paşinyan bu yaxınlarda tərəfimizdən hazırlanan “Nikolsuz Ermənistan” və “Nikoldan sonra Ermənistan” tezislərini qəbul etməkdə çətinlik çəkir: “Ümumiyyətlə, mövcud hakimiyyət orqanları başa düşürlər ki, ictimai mühitdə dərinləşən puç xəyallar, artan sosial-iqtisadi problemlər və xarici siyasət çağırışları daxili gərginlik ehtiyatı yaradır. Hansı ki, bu, hər hansı bir bəhanə ilə siyasi proseslərin kaskad mexanizminə çevrilə və bununla da “Nikolsuz Ermənistan” layihəsi həyata keçə bilər”.

Aşotyan deyib ki, bu fonda partiyanın institusional, insan və beynəlxalq resurslarının səfərbər edilməsi daxil olmaqla, müxalifətin hər cəbhədə fəallaşması Paşinyanı narahat etməyə bilməz.

Ardı 7-ci səh.




# Prezident İlham ƏLİYEV:

# "Vətənə bağlılıq və milli dəyərlər hər şeydən üstün olmalıdır"

Ölkəmizin hər bir bölgəsi inkişaf edir. Gənclər gələcəkdə elə işləməlidirlər ki, bu inkişaf dayanıqlı olsun, müstəqilliyimiz əbədi olsun. Ona görə bir daha demək istəyirəm - bunu nə qədər çox təkrarlasaq ziyanı yoxdur - bilik, savad, vətənpərvərlik, vətənə bağlılıq və milli dəyərlər hər şeydən üstün olmalıdır. Bizi xalq kimi, millət kimi əsrlərboyu qoruyan, assimilyasiyadan qoruyan bizim dəyərlərimiz olub. Ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz və milli şüurumuz. Bunu biz heç vaxt itirə bilmərik, heç vaxt! Nə qədər ki, mən Prezidentəm, var gücümlə çalışacağam ki, bu dəyərlər tam bərqərar olsun.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 101-ci kitabında yer alan bu fikirlər dövlət başçısının bu il martın 4-də Tovuzda "ASAN Həyat" kompleksinin açılışındakı çıxışından götürülüb.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci ilin fevral-mart aylarını əhatə edir.

Yeni kitabda Prezident İlham Əliyevin İtaliya Respublikasına dövlət səfərinə, Türkiyə və Türkmənistan prezidentlərinin ölkəmizə səfərləri zamanı apardığı danışıqlara, imzalanan sənədlərə və mətbuata birgə bəyanatlara dair materiallar toplanıb.

Nəşrə Azərbaycan Prezidentinin ABŞ, Böyük Britaniya və Rusiyanın, Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizə gəlmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsi haqqında informasiyalar daxil edilib.

Dövlət başçısı bütün görüşlərində və apardığı danışıqlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, uzun illərdir Azərbaycanın terrorizmdən əziyyət çəkdiyini, işğalçı Ermənistanın xalqımıza məxsus qədim dini və digər maddi mədəniyyət abidələrini dağıtdığını diqqətə çatdırıb.

Bu cilddə oxucular Azərbaycan Prezidentinin Goranboy, Şəmkir, Qazax, Ağstafa və Tovuz rayonlarına səfərləri zamanı infrastruktur obyektlərinin, o cümlədən "ASAN xidmət" mərkəzinin, xəstəxanaların, parkların, sənaye müəssisələrinin açılışında söylədiyi nitqlərinin mətnləri, ictimaiyyət nümayəndələri ilə görüşləri barədə materiallarla da tanış ola bilərlər.

Prezident İlham Əliyevin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısında, altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında dərin məzmunlu nitqlərinin mətnləri və digər materiallar da yeni nəşrdə yer alıb.

"Azərnəşr" tərəfindən buraxılan çoxcildliyin 101-ci kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Beynəlxalq Startap Yarışmasında Azərbaycanı təmsil edəcək startap məlum olub




Dünyanın 80 ölkəsindən startapların iştirak edəcəyi İslam İnkişaf Bankının Beynəlxalq Startap Yarışmasında Azərbaycanı təmsil edəcək startap məlum olub.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, sentyabrın 10-da təşkil olunmuş onlayn tədbirdə yarışmanın ölkə üzrə milli seçim mərhələsinə müraciət etmiş startaplar münsiflər heyəti qarşısında öz startap layihələrini təqdim ediblər. Münsiflər heyəti yarışmanın Azərbaycan üzrə rəsmi tərəfdaşı olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, İslam İnkişaf Bankının və İslam İnkişaf Bankı Qrupunun İllik İnvestisiya Toplantısının təşkilat komitəsinin üzvlərindən ibarət olub. Münsiflər Heyətinin qərarı ilə "Mina - Made in Azerbaijan" startap komandasının yuyucu vasitələrdən istifadə etmədən əşyaları təmizləyən elektron cihazı - "W-ball" layihəsi Azərbaycan üzrə milli turun qalibi seçilib. Qalib startap Azərbaycanı oktyabrın 29-da Dubayda keçiriləcək Beynəlxalq Startap Yarışmasında təmsil edəcək. Dubayda təşkil olunacaq yarış bilavasitə iştirak formatında keçiriləcəyi təqdirdə milli təmsilçinin bütün xərcləri İslam İnkişaf Bankı tərəfindən qarşılanacaq. Beynəlxalq Startap Yarışmasında ümumilikdə 5 qalib seçiləcək və onların hər birinə 10 min ABŞ dolları məbləğində mükafat veriləcək. Həmçinin İslam İnkişaf Bankı tərəfindən qalib startapların gələcək inkişafına maliyyə dəstəyi göstərilə bilər.

Qeyd edək ki, Beynəlxalq Startap Yarışmasının Azərbaycan üzrə milli seçim mərhələsinə sentyabrın 1-də start verilib. Yarışmanın tələblərinə uyğun gələn, mobil tətbiqlər, ağıllı cihazlar, onlayn xidmətlər kimi sahələrdə fəaliyyət göstərən 15 startap milli seçim turunda iştirak edib.

# İqtisadi Şuranın ilk iclası keçirilib



Sentyabrın 10-da Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılmış İqtisadi Şuranın sədri Əli Əsədovun sədrliyi ilə şuranın ilk iclası keçirilib.

İclasda şuranın üzvləri - Azərbaycan Respublikası Prezidentinin köməkçiləri Şahmar Mövsümov və Natiq Əmirov, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçiləri Emin Hüseynov və Xalid Əhədov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə naziri Samir Şərifov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Baş Nazir Əli Əsədov Prezident İlham Əliyevə İqtisadi Şura üzvləri adından göstərdiyi yüksək etimada görə minnətdarlığını bildirib.

Qeyd edib ki, İqtisadi Şura yeni bir platforma olaraq dünya və milli iqtisadiyyat üçün mürəkkəb bir dövrdə ən çətin tapşırıqları kollegial şəkildə müzakirə etmək, ortaq məxrəcə gəlmək üçün əlverişli institutdur. İqtisadi Şuranın Prezidentin fərmanı ilə qarşıya qoyulmuş tapşırıqları yerinə yetirmək üçün bütün təşkilati, iqtisadi və maliyyə imkanları var.

Bildirib ki, Prezidentin tapşırığına əsasən İqtisadi Şura iqtisadi siyasətin çərçivələrinə dair proqram hazırlamalıdır. Dövlət investisiyalarına paralel olaraq özəl yerli və xarici investisiyaların cəlbi yeni dövr iqtisadi siyasətin əsas istiqaməti olmalı, özəl sektorun aparıcı rolu təmin edilməli, investisiya mühitinin yaxşılaşdırılması üçün ciddi və radikal addımlar atılmalıdır.

Milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavabın verilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyev qarşıya yeni vəzifələr qoyub. Bunlar makroiqtisadi və maliyyə sabitliyinin qorunması, iqtisadiyyatın illik artım tempinin yüksəldilməsi üçün yeni mexanizmlərinin formalaşdırılması, daha dayanıqlı və inklüziv iqtisadi artım mənbələrinin yaradılması, xüsusilə özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların cəlb olunması, qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyən edilməsi, investisiya mühitinin radikal yaxşılaşdırılması, ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsi, sosial-iqtisadi rifah səviyyəsinin yüksəldilməsi və digər strateji vəzifələrdən ibarətdir.

Baş Nazir vurğulayıb ki, qeyd olunan vəzifələrin icrasını təmin etmək məqsədilə Prezidentin fərmanında İqtisadi Şuraya iqtisadiyyatın bütün sahələrində, o cümlədən fiskal, monetar və maliyyə-bank sahələrində, real sektorda, özəl investisiyaların təşviq edilməsində, dövlət müəssisələrinin fəaliyyətinin tənzimlənməsində, sosial müdafiə sisteminin səmərəliliyinin artırılmasında, səhiyyə və təhsilin inkişafında dünyada mövcud olan uğurlu modellər əsasında təkliflər hazırlanması tapşırılıb.

İqtisadi Şura fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə yerli və xarici ekspertləri, beynəlxalq təşkilatları və elmi müəssisələri cəlb edə bilər.

Şura üzvləri çıxış edərək Şuranın Əsasnaməsi, uzunmüddətli iş planının hazırlanması, islahatların istiqamətləri haqda fikirlərini bildiriblər.

Sonda Baş Nazir İqtisadi Şuranın üzvləri adından bildirib ki, Prezident tərəfindən qarşıya qoyulan mürəkkəb və şərəfli vəzifələrin icrası ilə əlaqədar İqtisadi Şura üzərinə düşən məsuliyyəti tam dərk edir və bu istiqamətdə bütün lazımi tədbirlərin operativ şəkildə görülməsini təmin edəcək.

İqtisadi Şura hər altı aydan bir görülmüş işlər barədə Prezidentə məruzə edəcək.

# Postpandemiya dövrü: yeni çağırışlar

## Məmur da, vətəndaş da dövlətin mənafeyini şəxsi marağına qurban verməməlidir

"Taclı" virus təmtəraqlı adından da bəllidir ki, bəzi qüvvələrin müəyyən məqsədlər üçün düşünüb reallaşdırdığı qlobal layihədir. Onu yaradıb dövriyyəyə buraxanlar üzə çıxmadığından müəllifi məlum deyil. Bu səbəbdən onun kim tərəfindən yaradıması ilə bağlı bir-birlərini qarşılıqlı ittiham edən, hədələyən güc mərkəzləri kifayət qədərdir.

Müəmmalı virusun sürətlə yayılması nəticəsində bəşəriyyət elə faciələrlə üzləşib ki, əslində COVID-19-un kimin xəstə təxəyyülünün məhsulu olması arxa plana keçib və artıq bunu düşünən də yoxdur. Əgər ölüm gətirən bu xəstəlik "taclı" viruc adı ilə gündəmə gəlibsə, deməli, ona ümid bəsləyənlər, onu müəyyən məqsədlər üçün dövriyyəyə buraxanlar nə istədiklərini dəqiq bilirmişlər.

Virusun yayıldığı qısa müddət ərzində Yer kürəsi sanki yerindən oynayaraq məhvərindən çıxıb və dünya tarixinin ağır böhranı ilə qarşılaşıb. Planeti kabus kimi cənginə alan bu virusa yoluxanların və ölənlərin sayı milyonlarladır, dünya iqtisadiyyatının itkiləri isə milyardlarla ölçülür.

Belə gərgin vəziyyətdə acizlər ruhdan düşür, vahimələnir və bədbinliyə qapanırlar. Aqillər isə dövrün mizan-tərəzisini nizamlayır, müdriklərə məxsus qətiyyətlə maneələri aşır, irəli gedirlər.

Hamı etiraf edir ki, pandemiya artıq köhnə dövrə, əvvəlki yaşam tərzinə son qoyub. Biz istəsək belə, keçmişə qayıda bilməyəcəyik. Yeni çağırışlar fərqli yaşam və düşüncə tərzinin, daha mükəmməl qaydaların gündəmə gəlməsini qaçılmaz edib. Biz yenə onlara arxa çevirsək, reallıqlarla hesablaşmasaq və qəti tədbirləri zamanında görməsək, indikindən daha çətin vəziyyətə düşə bilərik və daha ağır fəlakətlərlə üzləşərik.

Bu baxımdan Azərbaycan Prezidentinin pandemiya dövründə atdığı addımlara və verdiyi qərarlara fərqli baxış bucağından nəzər yetirmək vacibdir. Hamımız Azərbaycanda koronavirus əleyhinə həyata keçirilən vacib tədbirləri adbaad sadalaya bilərik. Mövcud xəstəxanaların, mehmanxanaların bu virusa yoluxanların müalicəsi üçün ayrılması, yenilərinin tikilməsi, müasir laboratoriyaların qurulması, avadanlıqların alınaraq ölkəyə gətirilməsi və biznesə geniş dəstək layihələrinin, sahibkarlara vergi güzəştlərinin tətbiqi, iş yerini itirənlərə və sosial yardıma ehtiyacı olanlara edilən yardımlar nəticəsiz qalmayıb.

Lakin diqqət ayırmaq istədiyimiz məqam başqadır. Dövlət başçısı bu mürəkkəb günlərdə dövlət quruculuğunda daha böyük məsuliyyət və tələbkarlıqla ən çətin sahələrdən birini daim diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidenti kadr islahatlarında dövlətin məmur korpusunu bütün ciddiyyəti ilə məsuliyyətə dəvət edir və bildirir ki, vəzifə məmur üçün imtiyazlardan yox, onun çiyninə qoyulan böyük məsuliyyət yükündən ibarətdir. Bütün yeni təyinatlarla bağlı keçirilən videoqəbullarda, bir sıra obyektlərin açılış mərasimlərində, iqtisadi müşavirələrdə dövlət başçısı yeni təyinat alan kadrlardan birmənalı şəkildə tələb edir ki, onlar vəzifələrini icra edərkən xalqın, dövlətin mənafeyini qorusunlar, insanlara yaxın olsunlar, onların qayğılarına şərik çıxsınlar və problemlərini həll etsinlər.

Pandemiyanın tüğyan etdiyi mürəkkəb bir vaxtda kadr islahatları arxa plana keçə bilərdimi? Məmur özbaşınalığının qarşısını almaq üçün pandemiyanın bir qədər səngiməsini gözləmək olardımı? Təbii ki, yox! Bu səbəbdən dövlət başçısı kadrlara qarşı daha tələbkar oldu, daha sərt və güzəştsiz mövqe tutdu. Bütün çıxışlarında məmur özbaşınalığına qarşı barışmaz mövqe sərgilədi, qəti şəkildə heç kimə güzəşt edilməyəcəyini hamının diqqətinə çatdırdı. Eyni zamanda ölkə vətəndaşlarına müraciətlərində ictimaiyyətin geniş təbəqələrini fəal vətəndaş mövqeyi nümayiş etdirməyə çağırdı.

Pandemiya ilə bağlı əksər ölkələrdə, o cümlədən Azərbaycanda ciddi qaydalar və qadağaların tətbiqi bu gün də davam edir. Amma bu məsələdə bizim ölkəmizdə reallıqlar fərqlidir. Birincisi, müstəqillik tariximiz onilliklərlə ölçülür. Bu o deməkdir ki, dövlət quruculuğu yeni formalaşır, dövlətçilik ənənələri inkişaf mərhələsindədir. İkincisi, Azərbaycan müstəqilliyi elan edilən gündən indiyədək bütün dünyanın göz yumduğu və dolayısı dəstək verdiyi işğalçı Ermənistana təkbaşına müqavimət göstərir, müstəqilliyini və ərazi bütövlüyünü qorumaq, düşmənin saysız hərbi təxribatlarının qarşısını almaq üçün müdafiəsini gücləndirmək, ordusunu müasir silahlarla təchiz etmək məcburiyyətindədir. Bütün bunlara isə təbii ki, böyük vəsaitlər xərclənir.

Əgər erməni işğalçılarının zəbt etdikləri torpaqların, dağıtdıqları şəhər və kəndlərin, tarixi və mədəniyyət abidələrinin, zavod və fabriklərin, digər istehsal sahələrinin və bir milyondan artıq məcburi köçkünə və qaçqına vurduqları maddi ziyanların ümumi dəyərini hesablasaq, alınan rəqəmlərin pandemiyadan doğan itkiləri dəfələrlə üstələdiyini görərik. Üstəlik, pandemiya ilə ilin əvvəlindən mübarizə aparırıqsa, erməni faşist işğalçıları ilə 30 ilə yaxındır döyüşürük. Bu isə o deməkdir ki, Azərbaycan bütün dünyadan daha fərqli çətinliklər qarşısındadır.

Lakin dövlət başçısının islahatçı ruhuna, əqidəsinə sadiqliyi, çətinlikləri dəf etmək bacarığı Azərbaycana pandemiya dövrünü daha az itkilərlə keçməyə imkan verir. Faktiki olaraq dövlət başçısı hər birimizi vətəndaş fəallığına dəvət edir, dövlətçilik ideyalarının təkamülünə dəstək verməyimizi qarşımızda bir tələb kimi qoyur.

Əgər dövlətin üst eşelonunda belə vacib addımlar atılırsa, dövlət məmurundan birmənalı şəkildə yeni davranışlara, qanunun aliliyinə əməl etmək tələb olunursa və müqəssirlər cəzalanırsa, deməli, hər bir vətəndaş da öz işinə, vətənə, dövlətçiliyə münasibətdə laqeyd müşahidəçi yox, yaradıcı mövqe sərgiləməlidir.

Biz nə qədər fəal olsaq dövlətin gördüyü bütün tədbirlərin faydalı iş əmsalı daha yüksək olacaq. Dövlət-xalq birliyi, dövlət-vətəndaş həmrəyliyi Azərbaycana inkişaf üçün böyük güc verən ciddi amillərdəndir. Buna görə hər birimizin borcudur ki, ölkədə aparılan islahatlar səviyyəsində əxlaqımızı, vicdanımızı cilalayaq, dövlətin mənafeyini öz maraqlarımızdan üstün tutaq, alman, ingilis, yapon və başqa xalqlar kimi...

Azərbaycan Prezidenti vəzifəli şəxsi əməllərinə görə cəzalandırırsa, vəzifəsindən azad edirsə, bizim də borcumuz dövlətçilik ənənələrini gücləndirmək, islahatlara həyan durmaq, onları qoruyub inkişaf etdirməkdir. İlham Əliyev məmurları necə israrla qanunun aliliyinə dəvət edirsə, biz də hamılıqla yaşam tərzimizi, vərdişlərimizi, düşüncəmizi islah etməli, qanunun aliliyini müqəddəs saymalıyıq.

Sadə bir misal gətirək. Məlumdur ki, "ASAN xidmət" yaradıldıqdan sonra müəyyən sənədlərin, arayışların verilməsində neqativ hallara birdəfəlik son qoyuldu. Bu xidmətdən faydalananların sayı on milyonlarla ölçülür. "ASAN xidmət"in yaradılmasının əsas üstünlüyü ondan ibarətdir ki, o rüşvətxor məmurun qarşısını almaqla yanaşı, həm də hər xidmətə görə haqq ödəməyə alışan vətəndaşı bu imkandan məhrum etdi. Gəlin açıq etiraf edək ki, hansısa idarəyə sənəd dalınca gedəndə qonum-qonşudan, tanış-bilişdən nə qədər rüşvət vermək lazım olduğunu soruşurduq. İndi milyonlarla insan bu quruma müraciət edir və heç kim də rüşvət haqqında fikirləşmir.

Bu gün Prezident İlham Əliyevin dövlət quruculuğu istiqamətində apardığı islahatların təsir gücü qismən də olsa hər birimizin vətəndaş mövqeyindən asılıdır. Postpandemiya dövründə o ölkələr irəli çıxacaq ki, onlar mükəmməl idarəetmə sistemlərini qura biləcək və hər bir vətəndaş özündən çox dövlətini düşünəcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanla Türk Şurası Birgə İnvestisiya Fondunun yaradılması üzrə müzakirələr aparıb

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Baş katibi Bağdad Amreyevlə görüşü keçirilib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, M.Cabbarov Azərbaycanın TDƏŞ üzvü olan dövlətlərlə əməkdaşlığın yüksək səviyyədə olduğunu, ölkəmizin iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verdiyini qeyd edib. O, TDƏŞ Baş katibi B.Amreyevə bu il iyul ayının 14-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı ilə əlaqədar verdiyi bəyanata görə təşəkkürünü bildirib.

Nazir TDƏŞ çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanlarına dair fikirlərini bölüşüb, Türk Ticarət Evinin yaradılmasının üzv ölkələrin ixrac potensialının artırılması istiqamətində müsbət təşəbbüs olduğunu vurğulayıb.



Baş katib B.Amreyev üzv ölkələr arasında inteqrasiyanın daha da gücləndirilməsi, əlaqələrin inkişafı baxımından TDƏŞ-in önəmli platforma olduğunu qeyd edib, Azərbaycanın təşkilatda fəal iştirakını vurğulayıb.

Görüşdə TDƏŞ çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və genişləndirilməsi imkanları, "Turkic Vision - 2040" strateji konsepsiyasının hazırlanması, Birgə İnvestisiya Fondunun yaradılması, Ticarətin Asanlaşdırılması üzrə Strategiya Sənədi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib



Sentyabrın 10-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Tahir Mirkişili iclasın gündəliyi haqqında məlumat verib. İclasda 2020-ci il yaz və növbədənkənar sessiyaları ərzində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində görülən işlər barədə hesabat təqdim edilib. Komitənin 2020-ci il payız sessiyası dövrünə dair işlər planına baxıldıqdan sonra altı qanun layihəsi müzakirəyə çıxarılıb.

T.Mirkişili qeyd edib ki, COVID-19 xəstəliyinin yayılmasına qarşı Azərbaycanda müxtəlif istiqamətlərdə dövlət tərəfindən tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə pandemiyaya qarşı mübarizədə uğurlar qazanılıb. Həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatda azalma aşağı səviyyədə olub. Komitə sədri bildirib ki, bu ilin 7 ayı ərzində ümumi daxili məhsul 2,8 faiz azalsa da, qeyri-neft sektorunda 1,6 faiz artım olub. Bu, digər ölkələrlə müqayisədə çox yaxşı göstəricidir.

T.Mirkişili sentyabrın 9-da Prezidentin fərmanı ilə İqtisadi Şura yaradıldığını qeyd edib. Şura qarşısında Azərbaycan iqtisadiyyatının yaxın 10 il ərzində 2 dəfəyə qədər artıma nail olunması ilə bağlı tapşırıqlar qoyulduğunu diqqətə çatdıran komitə sədri qeyri-neft sektorunun inkişafının insan kapitalından istifadəni nəzərdə tutduğunu deyib. Onun sözlərinə görə, İqtisadi Şuranın qarşısına qoyulan məqsədlər Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin qarşısında da qanunvericilik baxımından yeni çağırışlar müəyyən edir.

Qeyd edilib ki, Maliyyə Nazirliyi tərəfindən Azərbaycanın 2021-ci ilin dövlət büdcəsinin ilkin göstəriciləri açıqlanıb. Yaxın vaxtlarda 2021-ci ilin dövlət büdcəsi layihəsi müzakirə üçün Milli Məclisə daxil olacaq. Bildirilib ki, 2021-ci ildə 2,8-3,4 faiz iqtisadi artım proqnozlaşdırılır. Bu büdcə ilk dəfə ortamüddətli xərclər əsasında hazırlanıb.

Komitə sədri pandemiya dövründə parlamentdə iclasların səmərəli və keyfiyyətli keçirilməsi ilə əlaqədar Milli Məclisin Sədri Sahibə Qafarovaya komitə adından minnətdarlığını bildirib. Diqqətə çatdırıb ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi 2020-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə öz fəaliyyətini Milli Məclisin qanunvericilik planına uyğun şəkildə həyata keçirib. Ölkədə elan edilmiş karantin rejimi ilə əlaqədar vətəndaşlarla birbaşa ünsiyyət imkanları məhdud olsa da, komitə üzvləri seçicilərlə onlayn qəbullar keçirib.

Diqqətə çatdırılıb ki, komitədə 26 iclas keçirilib, bu iclaslarda 96 məsələ, o cümlədən 94 qanun layihəsi və 1 rəy geniş müzakirə edilib. Bu dövr ərzində Hesablama Palatasının 2019-cu il üzrə fəaliyyəti haqqında hesabat, "2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi, "2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Qanununun layihəsi komitədə geniş müzakirə olunub.

Bildirilib ki, iclaslardan 14-ü videokonfrans formatında keçirilib. Yaz sessiyasında komitəyə 24 vətəndaşın imzası ilə ərizə, şikayət və müraciət daxil olub, onlardan 15-i tədbir görülməsi üçün müvafiq təşkilatlara göndərilib, 8 ərizə işə alınıb.

Deputatlar 2020-ci il yaz və növbədənkənar sessiyalarda komitənin fəaliyyətinin qənaətbəxş olduğunu bildiriblər.

2020-ci il payız sessiyasında görüləcək işlər barədə məlumat verilərək bildirilib ki, bu müddətdə "Turizm haqqında", "Lombardlar haqqında" və digər sənədlərə baxılması, dinləmələrin keçirilməsi nəzərdə tutulur. İclasda komitənin iş planı təsdiqlənib.

Sonra Milli Məclisin Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin əməkdaşı Əsmər İsmayılova "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Sazişin təsdiq olunması barədə Azərbaycan Respublikası Qanununun layihəsi haqqında sənədi təqdim edib. Bildirilib ki, saziş 2019-cu il 31 may tarixində Aşqabad şəhərində imzalanıb. Sazişdə əqli mülkiyyət obyektləri üzərində hüquqların qorunması sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məqamlar əks olunub.

İclasda Tahir Mirkişili "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Qeyd edilib ki, təklif olunan dəyişiklik qanunun 18.65.3-1-ci bəndi yeni redaksiyaya əsasən, yaxın qohumlara (ər-arvad, uşaqlar, valideynlər, övladlığa götürənlər və götürülənlər, babalar, nənələr, nəvələr, doğma və ögey qardaşlar və bacılar) bağışlanması halları istisna olmaqla, fiziki şəxslər tərəfindən minik avtomobillərinin özgəninkiləşdirilməsi haqqında müqavilələr və hərracın nəticələri haqqında protokol əsasında həmin minik avtomobillərinin müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Qeyd edilib ki, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi Azərbaycan Prezidentinin "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanına uyğun olaraq hazırlanıb. Bu məqsədlə məcəllənin 102.4.4-cü maddəsi ləğv olunur, 102.3-cü maddəsinə müvafiq düzəliş edilir. Düzəlişə görə daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I dərəcə əlilliyi olan şəxsə baxan və onunla birlikdə yaşayan valideynin, arvadın (ərin), himayəçinin və ya qəyyumun gəlirlərinin gəlir vergisindən azad olunan hissəsini artıraraq 200 manat məbləğində müəyyən edilməsi, həmçinin gəlir vergisi üzrə güzəşt tətbiq olunan kateqoriyaya sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərin də aid edilməsi nəzərdə tutulur.

Gündəliyin növbəti məsələsini Milli Məclisin İqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov təqdim edərkən deyib ki, "Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 30 dekabr 2019-cu il tarixli Fərmana əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu dörd qurum - Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Sosial Xidmətlər Agentliyi yaradılıb. Bununla bağlı Əmək Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "İşsizlikdən sığorta haqqında" və "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanunlarda dəyişikliklər nəzərdə tutulub. Bu qanunların bir sıra maddələrində "müvafiq icra hakimiyyəti orqanı" sözlərinin "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz olunması təklif olunur. Belə ki, bu sənədlərdə nəzərdə tutulan səlahiyyətləri publik hüquqi şəxs statuslu Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Sosial Xidmətlər Agentliyi həyata keçirəcək.

Həmin qanunlarla bir paketdə daxil olan "Dövlət qulluğu haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən isə "Dövlət orqanı anlayışı" maddəsindən dövlət orqanının Dövlət Sosial Müdafiə və İşsizlikdən sığorta fondlarının büdcəsindən maliyyələşdirilməsi müddəası çıxarılır. Bu dəyişiklik həmin qurumların publik hüquqi şəxsə çevrilməsi və dövlət orqanı statusunu itirməsi ilə bağlıdır.

Sonra Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri Kamalə Paşayeva "Mülki Prosessual Məcəlləsində, Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" (birinci oxunuşda) təqdim edib. O deyib ki, həmin qanun layihəsi 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli "Azərbaycan Respublikası Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılma məqsədilə hazırlanıb. Bu qanuna yeni bir anlayış - "məcburi nişanlanma ilə nişanlanmalı olan mallar" anlayışı daxil edilib.

Sonra qeyd olunub ki, "Azərbaycan Respublikası Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 30 noyabr 2018-ci il tarixli 1356-VQD nömrəli Qanunu ilə qanunvericiliyə yeni bir anlayış - "məcburi nişanlanma ilə nişanlanmalı olan mallar" anlayışı daxil edilmişdi.

İclasda komitənin sədr müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov və Aydın Hüseynov qanunvericiliklə bağlı öz fikirlərini bildiriblər.

Tədbirdə iştirak edən Məşhur Məmmədov, Rüfət Quliyev, Ziyad Səmədzadə, İqbal Məmmədov, Məzahir Əfəndiyev fikir və rəylərini bildiriblər.

Komitə üzvləri gündəlikdəki qanun layihələrini birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

# Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin payız sessiyasında ilk onlayn iclası

Sentyabrın 10-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi payız sessiyasında onlayn formatda ilk iclasını keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, komitənin sədri Hicran Hüseynova əvvəlcə gündəlikdəki məsələlər barədə məlumat verib, həmkarlarına VI çağırış Milli Məclisin ilk payız sessiyasında qanunvericilik işlərində uğurlar arzulayıb.

Sonra iclasda Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatı təqdim olunub. Bildirilib ki, hesabat dövründə komitənin 5 iclası keçirilib, 7 məsələyə baxılıb. Qanunvericilik fəaliyyəti ilə yanaşı, komitə üzvləri seçicilərlə də müntəzəm əlaqə saxlayıb, problemlərinin həllində onlara yardımçı olublar. Ölkənin ictimai-siyasi həyatında böyük fəallıq göstərən deputatlar xüsusilə COVID-19 pandemiyası ilə əlaqədar geniş maarifləndirmə işləri aparıb, daim vətəndaşların yanında olublar.

Hesabat dövründə komitəyə 310 ərizə və müraciət daxil olub, baxılması üçün müvafiq tədbirlər görülüb.

Onlayn iclasda aparılan fikir mübadiləsində deputatlar hesabatı məqbul sayıblar.

Sonra Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2020-ci ilin payız sessiyası üçün iş planının layihəsi müzakirəyə çıxarılıb. On bənddən ibarət iş planı təsdiqlənib.

Komitədə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsini (birinci oxunuş) təqdim edən Hicran Hüseynova bildirib ki, qanunun təhsil üzrə təminatlara dair 5-ci maddəsində edilən dəyişikliyə görə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də onların ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək.

Müzakirə zamanı deputatlar bunun çox mütərəqqi dəyişiklik olduğunu vurğulayıblar.

Komitə üzvləri Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Uşaq hüquqları haqqında" qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini də (birinci oxunuş) müsbət qarşılayıblar.

İclasda aparılan müzakirələrdə komitə sədrinin müavini Jalə Əliyeva, deputatlar Rauf Əliyev, Sədaqət Vəliyeva, Rəşad Mahmudov, Nigar Arpadarai, Tamam Cəfərova, Könül Nurullayeva, Pərvin Kərimzadə və Ramin Məmmədov rəy və təkliflərini bildiriblər. Sonra cari məsələlərə baxılıb.

Onlayn iclası yekunlaşdıran Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışlarda səslənmiş fikirlərə münasibət bildirib, qanunvericiliyə dair təkliflərini həmkarları ilə bölüşüb.

Komitə üzvlərinin yekdil qərarı ilə gündəlikdəki bütün məsələlər Mili Məclisin plenar iclasına tövsiyə olunub.

# Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti MDB dövlətlərinin Ticarət-Sənaye Palataları rəhbərlərinin videokonfransında çıxış edib

Sentyabrın 8-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev MDB dövlətlərinin Ticarət-Sənaye Palataları rəhbərlərinin onlayn formatda video-konfransında fəxri qonaq qismində iştirak edib.




Konfederasiyanın prezidenti qonaqları salamlayaraq bu vacib tədbirin təşkilindəki əməyinə görə Özbəkistanın Ticarət-Sənaye Palatasına və onun rəhbəri Adham İkramova təşəkkürünü bildirib. M.Musayev Azərbaycanın MDB ölkələri ilə əməkdaşlıq əlaqələrinə toxunaraq iqtisadi dövriyyənin son illər artdığını vurğulayıb.

ASK prezidenti bildirib ki, 2019-cu ildə MDB dövlətləri ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 4,610 milyard dollar təşkil edib. Azərbaycan bu ölkələrə 1,178 milyard dollarlıq məhsul ixrac edib, 3,433 milyard dollar dəyərində isə idxal əməliyyatları aparılıb. MDB ölkələri arasında ən yüksək ticarət dövriyyəsi (3,022 milyard dollar) isə Rusiya Federasiyası ilə qeydə alınıb. Rusiyanın Azərbaycan kənd təsərrüfatı məhsulları üçün ən böyük bazar olduğunu vurğulayan M.Musayev ölkəmiz ilə Rusiya arasında səmərəli ikitərəfli ticarət rejiminin tətbiq edilməsinin ticarət əməliyyatları üçün daha səmərəli imkan yaratdığını söyləyib. Ermənistandan başqa, digər MDB ölkələri ilə Azərbaycan arasında azad ticarət rejiminin qurulduğunu vurğulayan konfederasiya prezidenti, MDB dövlətlərinin İqtisadi İnkişaf Strategiyasının həyata keçirilməsində Azərbaycanın da iştirak etdiyini xatırladıb.

M.Musayev "COVID-19" pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadiyyata dəyən ziyanın minimallaşdırılması məqsədilə imzaladığı dəstək paketləri barədə geniş məlumat verərək məşğulluğun, makroiqtisadi və maliyyə sabitliyinin qorunması üçün 3,5 milyard manat həcmində sosial-iqtisadi dəstək paketinin icra olunduğunu qeyd edib.

Konfederasiyanın prezidenti videokonfrans iştirakçılarına təşkilat və onun fəaliyyət istiqamətləri barədə məlumat verib. Beynəlxalq Sənaye və Sahibkarlar Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı da daxil olmaqla 15-ə yaxın beynəlxalq təşkilatda Azərbaycan sahibkarlarını ASK-nın təmsil etdiyini diqqətə çatdırıb.

"Hesab edirik ki, milli iqtisadiyyatları və xüsusən də müəssisələri pandemiyanın qısa və uzunmüddətli nəticələrinə hazırlamaq lazımdır. İqtisadiyyatın sağlamlaşdırılması tədbirlərini, MDB dövlətləri arasında elektron ticarət dövriyyəsinin genişləndirilməsini, üzv ölkələrdə qida təhlükəsizliyinin dayanıqlığının təmin edilməsi üçün birgə profilaktik tədbirlərin qəbul edilməsini, habelə turizm, nəqliyyat, xidmətlər, kiçik və orta sahibkarlıq daxil olmaqla ən çox təsirlənən sahələrə xüsusi yanaşmanın tətbiqini, pandemiya və post-pandemiya dövrləri üçün fərqli platformalarda təcrübə mübadiləsini həyata keçirməyi təklif edirik", - deyə ASK prezidenti çıxışında bildirib.

Sonda M.Musayev konfransın işinə uğurlar arzulayaraq gələcək əməkdaşlıqda müvəffəqiyyətlər diləyib.

Konfransda ticarət palatalarının hesabatları dinlənilib və hesabatlar ətrafında müzakirələr aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan NATO PA-nın komitə iclasında pandemiyaya həsr olunan xüsusi konfransın keçirilməsini təklif etdi

Sentyabrın 9-da NATO Parlament Assambleyasının Təhlükəsizliyin milli ölçüsü komitəsinin videokonfrans formatında iclası keçirilib. İclasda Milli Məclisin NATO PA-dakı nümayəndə heyətinin üzvü Kamran Bayramov iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirə NATO PA-ya üzv və assosiativ ölkələrin nümayəndələri qatılıblar.

Gündəliyə "Çin və qlobal liberal quruluş", "NATO haqqında məlumatın və təhsilin artırılması" barədə hesabat layihələri və təşkilati məsələlər daxil edilib.

Tədbirdə çıxış edən üzv ölkələrin nümayəndələri müzakirə olunan məsələlərə münasibətlərini bildirib, qeyd və təkliflərini veriblər.

İclasda çıxış edən Milli Məclisin deputatı Kamran Bayramov bildirib ki, NATO haqqında məlumatın və təhsilin artırılmasına dair hesabat layihəsi NATO haqqında məlumatın və təhsilin artırılması üzrə səyləri tam əhatə etmiş, bu sahədə NATO-nun yanaşmaları və təşəbbüslərinə xeyli yer ayrılmış, bununla bağlı üzv dövlətlərin fəaliyyətinin müstəsna əhəmiyyətini tam əks etdirmişdir. Eyni zamanda, əminik ki, ayrıca dövlətlər misalında konkret nümunələrin verilməsi də NATO haqqında ictimaiyyət arasında məlumatlılığın artırılması işində öz dəyərli töhfəsini verəcək.

Deputat hesabat layihəsinin NATO-nun əlaqələri və "COVID-19 pandemiyası" adlı IV bəndinə dair təklif verib. Bu bənddə deyilir ki, NATO böhranla mübarizədə üzv dövlətlərin əldə etdiyi qabaqcıl təcrübənin mübadiləsini təşviq edir.

Təklif bu cümləyə "üzv olan dövlətlər" sözlərindən sonra "assosiativ üzvlər" sözlərinin daxil edilməsindən ibarətdir. Çünki, məsələn, NATO-nun assosiativ üzvü olan Azərbaycan dünyada pandemiyanın başlandığı andan koronavirusa qarşı mübarizədə regional və qlobal səviyyədə zəruri təşəbbüslər irəli sürür və məqsədyönlü addımlar atır, ölkəmiz COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi ÜST-ə könüllü ianə ayırmış, dünyanın 30-dan çox dövlətinə humanitar yardım göstərmişdir.

Hesabat layihəsinin məruzəçisi Angel Tilvara Kamran Bayramovun bu təklifini bəyəndiyini və komitənin növbəti iclasında təklifin müzakirəyə çıxarılacağını diqqətə çatdırıb.

Sonra Kamran Bayramov bildirib ki, COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq həmrəyliyin təmin edilməsi, bu sahədə qabaqcıl təcrübənin mübadiləsinin təşviq edilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə sədri olduğu Qoşulmama Hərəkatının 2020-ci il mayın 4-də Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş videokonfrans formatında Zirvə görüşü təşkil edilib. Görüşdə Prezident BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edib. Təklif Nyu Yorkda Qoşulmama Hərəkatının üzv ölkələri arasında yekdilliklə razılaşdırılıb və BMT-nin 130-a qədər üzv dövləti bu təklifə rəsmi dəstək verib.

Deputat Kamran Bayramov bununla əlaqədar NATO Parlament Assambleyası tərəfindən COVID-19 pandemiyası ilə mübarizədə NATO-nun rolu və əhəmiyyətinə həsr olunan ayrıca xüsusi videokonfransın keçirilməsi, konfransda koronavirusla mübarizədə NATO-ya üzv dövlətlərin və assosiativ üzvlərin arasında həmrəyliyin nümayiş etdirilməsi, onlar arasında qarşılıqlı fəaliyyətin təmin edilməsi, qabaqcıl təcrübənin mübadiləsi, bu təhdidə qarşı qlobal cavabın tapılması və digər əhəmiyyətli məsələlərin həmin konfransda müzakirəyə çıxarılması təklifini irəli sürüb.

Bununla da NATO Parlament Assambleyasının Təhlükəsizliyin milli ölçüsü komitəsinin videokonfrans formatında keçirilən iclası başa çatıb.

# Vətəndaş maraqlarına xidmət edən mütərəqqi sosial müdafiə sistemi

## İlham ƏLİYEV: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

*Əvvəli 1-ci səh.*



Bundan başqa, ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi, o cümlədən məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial müdafiəsinə xidmət edən "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və digər bu qəbildən olan qanunlar qəbul edildi.

Beləliklə, çox ağır bir şəraitdə yeni müstəqil dövlətin sosial siyasətinin əsasları qoyulurdu. Onu da vurğulamaq lazımdır ki, yalnız neft müqavilələrinin imzalanmasından sonra kardinal sosial dəyişikliklərin reallaşması üçün əsas yarandı.

### Yoxsulluğa qarşı mübarizə Azərbaycan dövlətinin sosial siyasətinin prioritetlərindən biri idi

Heydər Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdən biri yoxsulluğun azaldılması idi. Elə buna görə də "Yoxsulluğun azaldılması üzrə Dövlət Proqramı" qəbul edildi.

2002-ci il oktyabrın 25-də BMT-nin dəstəyi ilə hazırlanmış "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təqdimatına həsr edilmiş ümummilli konfransda geniş nitq söyləyən Heydər Əliyev yoxsulluq problemini ümumbəşəri problem kimi səciyyələndirərək, onun genezisini təhlil edərək demişdi: "Bizim ölkəmizdə Sovetlər İttifaqının dağılması ilə baş vermiş proseslərlə yanaşı, Ermənistanın Azərbaycana hələ 1988-ci ildən başlanmış hərbi təcavüzü iqtisadiyyatımıza çox böyük mənfi təsir göstərmişdir. Münaqişə, ondan sonra başlanan müharibə, təbiidir ki, iqtisadiyyatımızın bir çox sahələrinə mənfi təsir göstərmişdir. Sonrakı - 1990-1991, 1992-1993-cü illərdə isə bir tərəfdən Ermənistan-Azərbaycan münaqişəsi, müharibə, onun nəticəsində insanların yerlərindən-yurdlarından zorla çıxardılması, qaçqın və köçkün vəziyyətinə düşməsi, bütün varidatını itirməsi, digər tərəfdən isə Azərbaycanda bu illərdə mövcud olmuş hakimiyyət böhranı, iqtisadi və sosial böhran ölkəmizin iqtisadiyyatını ilbəil tənəzzülə uğratmışdı. 1993-1994-cü illərdə bu tənəzzül artıq son həddə çatmışdı. İqtisadiyyatımız inkişaf etmək əvəzinə, hər il təxminən 20-25 faiz tənəzzül edirdi. İnflyasiya çox yüksək səviyyəyə qalxmışdı. Təbiidir ki, belə vəziyyətdə bir çox müəssisələrin dayanması nəticəsində insanlar işsiz qalmışdılar. Bir də qeyd edirəm, bütün bunlar və müharibə zamanı qaçqın axınının daim artması ölkəmizdə yoxsulluğun yaranmasının əsas səbəbləri olmuşdur".

Proqramın icrası ilə bağlı görülmüş tədbirlər yoxsulluq səviyyəsinin 1993-cü ildəki 80-85 faizdən 2 dəfə azalmasını təmin etdi.

Bütövlükdə 1993-2003-cü ildə dövlətin mövcud maliyyə imkanları çərçivəsində bir sıra sosial islahatlar həyata keçirildi. Bunlara misal olaraq o dövr üçün əhəmiyyət kəsb edən pensiya islahatlarını, güzəşt və imtiyazların müavinətlərlə əvəz edilməsini və s. misal göstərmək olar. "Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla, sosial yönümü ilə səciyyələnirdi", - deyə Prezident İlham Əliyev həmin illəri xarakterizə edib.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günlərindən başlayaraq sosial-iqtisadi inkişafın sürətləndirilməsini vacib bir amil kimi müəyyənləşdirdi. Bununla əlaqədar olaraq imzaladığı həyat səviyyəsinin yaxşılaşdırılmasının vacib şərtlərindən hesab edilən yeni iş yerlərinin yaradılması, iqtisadi inkişafı sürətləndirmək üçün bütün imkanlardan istifadə olunmasına xidmət edən tədbirlərin görülməsi hökumətin vacib vəzifəsi kimi qiymətləndirildi. Bu barədə Prezident İlham Əliyev 2006-cı ildə demişdir: "...Azərbaycan xalqının bir hissəsinin yoxsulluq səviyyəsində yaşaması bizi qane edə bilməz. Biz bunu qəbul edə bilmərik. Ölkə Prezidenti kimi şəxsən mən qəbul edə bilmərəm ki, Azərbaycanda yoxsulluq səviyyəsində yaşayanların sayı belə çoxdur. Nə üçün bu belə olmalıdır? Hansı səbəblərə görə? Bu səbəblər aydındır. Azərbaycana vurulmuş o zərbələr ölkəmizi iqtisadi cəhətdən elə zəiflətdi ki, biz hələ indi-indi özümüzə gəlirik. Bir rəqəmi də sizə xatırlada bilərəm. Ancaq 2005-ci ildə Azərbaycan öz iqtisadi potensialına görə 1990-cı ilin səviyyəsinə gəlib çıxmışdır. Görün o illərdə ölkəmizə nə qədər böyük zərbələr vuruldu ki, 1990-cı ilin səviyyəsinə çıxmaq üçün bizə 15 il vaxt lazım oldu. Biz bu 15 ili, demək olar ki, itirdik. Əgər 1980-ci illərin sonunda, 1990-cı illərin əvvəllərində ölkəmizə rəhbərlik edən bacarıqsız, səriştəsiz, xəyanətkar adamlar o bəd əməlləri törətməsəydilər, yaxud da, ümumiyyətlə, siyasətdən uzaq olsaydılar, əlbəttə ki, belə çətin vəziyyətə düşməzdik. Ona görə bu gün Azərbaycan əhalisinin bir hissəsinin yoxsulluq səviyyəsində yaşamasının səbəbkarları məhz onlardır. Biz isə çalışırıq ki, bunu aradan qaldıraq və qısa müddət ərzində, son ilyarım ərzində yoxsulluğun səviyyəsi 50 faizdən 40 faizə düşübdür. Gələn il daha da aşağı düşəcəkdir. Mən qarşıya məqsəd qoymuşam ki, Azərbaycanda bir nəfər də yoxsul adam olmamalıdır. Azərbaycan xalqı yaxşı yaşamalıdır, bizim buna haqqımız çatır. Bizim siyasi iradəmiz var və biz bunu təmin edəcəyik".

### Sosial siyasəti həyata keçirmək üçün iqtisadi əsasların möhkəmləndirilməsi həlledici amildir

Çağdaş dövrümüzdə sosial siyasətin müəyyən olunmuş əsas tərkib hissələri bir çox tədqiqatçılar tərəfindən qəbul olunmaqdadır. Bunlar əhalinin pul gəlirlərinin, real və nominal haqlarının artması, ərzaq təminatı, məşğulluq, sosial təminat, təhsil, səhiyyə, mənzil şəraiti, əməyin mühafizəsi kimi məsələlərdir.

Əlbəttə, bütün bu göstəricilərin yaxşılaşdırılmasının kökündə iqtisadiyyat durur və əgər bu sahədə müsbət nəticələrə nail olmasaydıq, sosial uğurlardan da danışa bilməzdik. Faktlara nəzər yetirək. İlham Əliyevin Prezident kimi fəaliyyətinin ilk üç mərhələsində 2003-2019-cu illərdə Azərbaycana 250 milyard ABŞ dollarından artıq sərmayə qoyulub. 2019-cu il daxil olmaqla milli iqtisadiyyatımız 3 dəfədən çox böyüyüb. Sənaye istehsalı 2,6, kənd təsərrüfatı 2 dəfə artdı. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu çəkildi. Xəzərdə ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Limanı salındı, altısı beynəlxalq olmaqla, yeddi aeroport tikildi, orbitə 3 peyk çıxarıldı. Valyuta ehtiyatlarımız 24 dəfə artaraq 50 milyard dollara çatdı. Habelə, 2 milyon iş yerinin yaradılması keçilən möhtəşəm inkişaf yolunun ayrı-ayrı nümunələridir.

Bu baxımdan 2003-cü ildən 2020-ci ilə kimi olan dövr Azərbaycanda həyata keçirilən sosial siyasətin növbəti uğurlu mərhələsi kimi nəzərdən keçirilməlidir. Əvvəldə sadalan möhtəşəm uğurların hər biri Azərbaycanın iqtisadi inkişafına və nəticə etibarilə ölkədə sosial rifahın yüksəlməsinə təkan verib. Bu dövrdə yoxsulluğun 50 faizdən 5 faizə düşməsi, orta əməkhaqqının 11 dəfə, pensiyaların isə 8 dəfə artması bunun bariz nümunəsidir.

Azərbaycan dövləti sosialyönümlü bazar iqtisadiyyatı qurur. Bu fundamental məsələ 2009-cu ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Konstitusiyasında edilən dəyişikliklərdə öz əksini tapdı. Bu, ilk növbədə, o deməkdir ki, dövlət sərt bazar iqtisadiyyatının tələblərini, qanunları, sosial şəraiti nəzərə almalıdır. Bu fundamental prinsip əsas tutularaq ölkədə irimiqyaslı quruculuq işləri aparılır, pul xərclərinin və onların davam etdirilməsini vacib bir vəzifə kimi qarşıya qoyur. Biz daim əhalinin həyat səviyyəsi, pul gəlirlərini və dinamikasını, strukturunu, baş verən meyillər, iqtisadi inkişaf, müdafiə olunan xərclərin dinamikası, əhaliyə pullu və pulsuz xidmətlərin arasında optimal nisbətin təmin edilməsi kimi məsələləri daim diqqət mərkəzində saxlamalıyıq.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan hökuməti sosialyönümlü bazar iqtisadiyyatının qurulmasında məqsəd və vəzifələri, hədəfləri dəqiq müəyyənləşdirməli, əsaslandırılmış strateji proqramlardan istifadə etməli, sosial tərəqqini, keyfiyyəti, inkişafı xarakterizə edən göstəricilərin daim yaxşılaşmasını özünün vacib vəzifələri kimi diqqət mərkəzində saxlamalıdır. Qlobal maliyyə böhranı, neftin qiymətinin aşağı düşdüyü dövrdə Azərbaycan dövləti strateji proqramların, layihələrin heç birini dayandırmadı. Büdcə-maliyyə resurslarının bölüşdürülməsində sosial inkişafın sürətlənməsinə xidmət edən dəyişikliklər etdi, inflyasiya risklərinin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər gördü.

### Mütərəqqi sosial siyasətin bəzi nümunələri

Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi daim diqqət mərkəzindədir. Azərbaycan MDB-də yeganə dövlətdir ki, burada sosial siyasətin istiqamətlərindən birini şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi təşkil edir. Sosial müdafiənin bu aspekti də spesifik yanaşma tələb edir. Çünki şəhid ailələri və müharibə əlilləri ən yüksək sosial qayğıya layiqdirlər. İyul ayında Ermənistanın Tovuz rayonu istiqamətində törətdiyi təxribatın qarşısının alınması zamanı qəhrəmancasına şəhid olan hərbçilərin sosial qayğılarının ilk gündən diqqət mərkəzində saxlanılması göstərdi ki, şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir.

2019-cu ildən başlanan yeni sosial paketlər çərçivəsində bu kateqoriyadan olan vətəndaşlar üçün sosial ödənişlərin də ciddi şəkildə artırılması təmin edilib. 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinin 11 min manat birdəfəlik ödəmə ilə təminatı proqramı da 100 faizə yaxın icra olunub.

Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminat proqramı da ildən-ilə gücləndirilir. 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 ədəd, 2019-cu ildə isə bundan 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə bu sahədə rekord göstərici kimi azı 1500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi nəzərdə tutulub, artıq 430 mənzil təqdim edilib.

2019-cu ilin avqust ayında Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində Prezident İlham Əliyev bu təbəqədən olan insanların problemlərinin daim diqqət mərkəzində olduğunu qeyd edərək bildirib ki, son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb. Ümumiyyətlə, şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı sahəsində rekord göstəricilərə nail olunması hədəflənib. "Təkcə onu demək kifayətdir ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və 7 minə yaxın avtomobil verilibdir. Hesab edirəm ki, biz bu il də bu sahədə rekord göstəriciyə nail olacağıq, buna şübhə yoxdur. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilir və ediləcəkdir. Bütün mənzillər ən yüksək keyfiyyətlə tikilən yeni evlərdədir", - deyə Prezident İlham Əliyev bildirib.

Dövlətin xüsusi qayğısı nəticəsində müharibə əlilləri və onlara bərabər tutulanların dövlət tərəfindən minik avtomobilləri ilə təminatı tədbirləri də geniş vüsət alır. 2018-ci ildə müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 265 avtomobil verilibsə, 2019-cu ildə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600 avtomobil verilib. Bu il də daha 400 avtomobil verilməsi planlaşdırılıb və artıq 150 avtomobil verilib.

Qaçqın və məcburi köçkünlərə yüksək qayğının diqqət mərkəzində olduğunu qeyd etmək istərdim. Məcburi köçkünlərin olduqca ağır vəziyyətdə yaşadıqları çadır düşərgələrinin ləğvi ideyası da Heydər Əliyevə məxsus idi. Ümummilli Lider yaranan iqtisadi imkanları, ilk növbədə, qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə yönəldirdi. Dövlət Neft Fondunda toplanan ilk vəsait də qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəldilmişdi.

Cənab İlham Əliyev 2003-cü ilin prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. 2006-cı ildə Bərdə və Ağcabədi rayonlarındakı 4 çadır düşərgəsinin, 2007-ci ilin dekabrında isə Saatlı və Sabirabad rayonları ərazisindəki 3 çadır düşərgəsinin ləğvi təmin edildi ki, bu da Prezident İlham Əliyevin tapşırığının vaxtından bir il əvvəl yerinə yetirilməsi deməkdir.

2004-cü ildə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ölkəmizdə qaçqın və məcburi köçkünlərə dövlət qayğısının növbəti təzahürü idi. Proqram nəticəsində 2004-cü ildən başlayaraq qaçqın və məcburi köçkünlər üçün respublikamızın müxtəlif bölgələrində yeni yaşayış qəsəbələrinin inşası prosesinə start verildi. Sonrakı illərdə proqrama əlavələr edildi və buna müvafiq olaraq qaçqınların və məcburi köçkünlərin sosial durumunun, yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədilə xeyli sayda tədbir həyata keçirildi.

Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq indiyədək ölkəmizin müxtəlif ərazilərində qaçqın və məcburi köçkünlər üçün bütün sosial-texniki infrastrukturu ilə birlikdə 100-dən artıq qəsəbə və şəhərcik salınmışdır.

Qeyd edək ki, Prezident İlham Əliyevin çağırışından sonra özəl sektor da bu işlərə qoşulub. "Paşa Holdinq" tərəfindən Qobu qəsəbəsində məcburi köçkünlər üçün 3 şəhərcik inşa edilib və orada artıq 4 minə yaxın köçkün ailəsi məskunlaşıb: "Eyni zamanda şəhid ailələri, müharibə əlilləri üçün evlərin tikilməsinin, əlbəttə ki, böyük hissəsini dövlət öz üzərinə götürübdür. Ancaq özəl sektor da artıq fəaldır və bu il "Kapital Bank" 68 mənzili öz vəsaiti hesabına bu kateqoriyadan olan insanlara təqdim edib. Bu, həm ölkəmizdə mövcud olan vətəndaş həmrəyliyinin, dövlət siyasətinin təzahürüdür, dövlət və özəl sektor tərəfindən bu kateqoriyadan olan insanlara qayğının əlamətidir və eyni zamanda ölkəmizin gücünü göstərir", - deyə Prezident İlham Əliyev bildirib.

Respublika rəhbəri onu da xüsusi olaraq qeyd etdi ki, burada ilk dəfə olaraq istehsal müəssisəsi yaradılıb ki, bu da kompleksdə yaşayanların işlə təmin edilməsi üçündür. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin, mənzil şəraitlərinin həllinə heç bir ciddi beynəlxalq yardım olmadan 7 milyard manatdan artıq vəsait xərclənib. Başqa bir məqam ondan ibarətdir ki, Azərbaycan MDB məkanında sosial siyasətin məhz bu istiqamətində tədbirlər həyata keçirən yeganə dövlətdir. Bu da insan amilinin respublikamızda prioritet olduğunu təsdiqləyən mühüm amillərdən biridir.

*(Ardı var)*

***Ziyad SƏMƏDZADƏ,***
***AMEA-nın həqiqi üzvü,***
***Milli Məclisin deputatı***

# İdarəetmənin keyfiyyətinin yüksəldilməsində yeni struktur islahatlarının əhəmiyyəti böyükdür

Şəhərlər də insan kimidir. Hərəsi öz taleyini yaşayır. Qayğı göstərildikdə böyüyüb inkişaf edir, baxımsızlıqdan bu yolda taleyi yarımçıq qalmış şəhərlər də olur. Azərbaycanın tarix və mədəniyyətində özünəməxsus yeri olan Gəncə şəhəri əsasən inkişaf edən şəhərlər sırasındadır.



Keçmişi ilə əfsanələşən, zaman-zaman yadellilərin basqınına və talanlarına qarşı mətanətlə dayanan və Azərbaycanın qəhrəmanlıq salnaməsinə adını yazdıran bu qədim şəhərin siması tanınmaz dərəcədə dəyişmişdir. Bu yüksəliş Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi vaxtlardan başlamış, özünün yeni inkişaf dövrünə qədəm qoyaraq gündən-günə daha da gözəlləşib.

Tarix boyu istiqlaliyyət uğrunda mübarizə aparan, bu yolda qurbanlar verən qədim və qəhrəman Gəncə şəhərinin adı bir neçə dəfə dəyişdirilib. 4 min illik zəngin tarixə malik Gəncə şəhəri 1804-cü ildən 1918-ci ilədək Yelizavetpol adlandırılıb. 1918-ci ildə Gəncə adı bərpa edilsə də, 22 fevral 1935-ci ildə yenidən şəhər Kirovabada çevrilib. Gəncə adının çəkilməsi sovet imperiyası dövründə yasaq olsa da, xalq şəhərin qədim adını ürəyində yaşadıb. Həmin dövrlərdə şəhərin adının dəyişdirilərək yenidən Gəncə qoyulmasından isə əlbəttə, söhbət gedə bilməzdi. Sovetlər birliyinin şovinist siyasətinin hökm sürdüyü vaxt Gəncənin adının bərpa edilməsi isə böyük cəsarət tələb edirdi. Bu cəsarət 1980-ci ildə Ümummilli Lider Heydər Əliyevdən gəldi. Ulu Öndərin təkidi ilə şəhər iki rayona bölündü. Rayonlardan biri Kəpəz, digəri isə Gəncə adlandırıldı. Beləcə, xalq ürəyində çoxdan gəzdirdiyi məhəbbətə qovuşdu. Bu sevinc 1989-cu ilin 29 noyabrınadək sürdü. İstiqlal uğrunda mübarizəyə qalxan insanlar yenidən Kirovabad adının Gəncə ilə əvəz olunmasını tələb etdi.

Beləliklə, 1989-cu ildə Kirovabad Şəhər Xalq Deputatları Sovetinin sessiyasında sözügedən məsələ müzakirə olundu. Gəncə adının bərpası təklifi ilə qəbul edilərək qərar qəbul edilib. Həmin ilin 30 dekabrında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti bu qərarı təsdiq etdi. Qərarda deyilirdi: "Gəncənin tarixi adını bərpa etmək haqqında şəhər vətəndaşlarının, əmək kollektivlərinin və respublikanın geniş ictimaiyyətinin çoxsaylı müraciətini, Kirovabad Şəhər Xalq Deputatları Sovetinin xahişini nəzərə alaraq və Azərbaycan SSR Konstitusiyasının 114-cü maddəsinə (18-ci bənd) uyğun olaraq "Kirovabad şəhəri Gəncə şəhəri adlandırılsın".

Təkrarçılığın olmaması üçün 1991-ci il fevralın 7-də Gəncə rayonunun adı dəyişdirilərək Nizami rayonu adlandırıldı.

Beləliklə, vətənsevər insanların illərlə arzuladıqları bu yolda təqiblərə, təzyiqlərə məruz qaldıqları bir istəyin sonu uğurla nəticələndi. Azadlıq və istiqlaliyyətin müjdəsi oldu Gəncə adının qaytarılması. Sonra bir müddət fırtınalar və burulğanlar içində çalxalanan qədim şəhər xalqın təkidli tələbi və iradəsi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində nicat yolunu tapdı. Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin diqqət və qayğısı ilə bütün ölkə əhalisi kimi gəncəlilər də ölkənin inkişafına töhfələrini verməyə başladılar.

Hazırda Gəncədə bir şəhər və iki rayon icra hakimiyyəti fəaliyyət göstərir. Bu isə bir çox məsələlərdə təkrarçılığa gətirib çıxarır. Məsələn, əvvəllər şəhərdə iki təhsil idarəsi, iki polis şöbəsi, iki prokurorluq, iki səhiyyə idarəsi, eləcə də rayon maliyyə idarələri fəaliyyət göstərirdi. Hazırda onlar ləğv olunsa da, bəzi təşkilatlar, o cümlədən məhkəmə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) hər iki rayonda şöbələri, vətəndaşlıq aktlarının qeydiyyatı idarələri və sair təşkilatlar fəaliyyətlərini davam etdirirlər. İndiki bazar iqtisadiyyatı şəraitində bu qədər təşkilatın fəaliyyət göstərməsi isə söz yox ki, əlavə maliyyə xərcləri deməkdir. Odur ki, Gəncədə Nizami və Kəpəz rayonlarının inzibati ərazi bölgüsünün ləğv edilməsi ilə bağlı təkliflər razılıqla qarşılanır. Söz yox ki, ölkənin ikinci böyük şəhərində idarəetmənin keyfiyyətinin yüksəldilməsi və vətəndaşların rahatlığının və məmnunluğunun təmin edilməsi ilə bağlı bu təklif öz bəhrəsini verəcək.

Məlum olduğu kimi, Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu, demokratik prinsiplərin daha da təkmilləşdirilməsi dövlət idarəçiliyi ilə ictimaiyyət arasında əlaqələri əhəmiyyətli dərəcədə inkişaf etdirir. Bu isə öz növbəsində dövlət idarəçiliyini xalqın istək və arzularına uyğun həyata keçirmək imkanlarını genişləndirir.

Ölkəmizdə həyata keçirilən geniş struktur islahatlarının nəzərə çarpan tərəflərindən biri də ondan ibarətdir ki, fəaliyyətini ölkəmizin müasir inkişaf templəri ilə uyğunlaşdıra bilməyən bir sıra dövlət idarəetmə institutları və oxşar funksiyaları həyata keçirən dövlət orqanları ləğv olunur və bu proses indi də davam etdirilir. Bunlar idarəetmənin optimallaşdırılması yolunda olduqca vacib addımlardır. Nəzərə almaq lazımdır ki, bu addımlar həm də bürokratiyanın aradan qaldırılması, dövlət vəsaitlərinə qənaət edilməsi baxımından çox əhəmiyyətlidir.

Söz yox ki, 1980-ci ildə yaradılmış Nizami və Kəpəz rayonları inzibati ərazi bölgüsünün ləğv olunması şəhərdə idarəetmənin keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaq. İdarəçiliyin şəhərdə bir mərkəzdən həyata keçirilməsi isə vətəndaşların rahatlığını, məmnunluğunu təmin etməklə onların müraciətlərinə baxılma mexanizmini sadələşdirəcək, problemlərin daha çevik şəkildə həll olunmasını təmin edəcək. Bu da təbii ki, idarəetmə sistemində çoxpilləliyi, paralelçiliyi, təkrarçılığı, bürokratiya və süründürməçiliyi aradan qaldıracaq. Nəticədə büdcə vəsaitlərinin sərfiyyatına qənaət olunacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan qazının TANAP-la Avropaya test rejimində nəqlinə başlanıb

## Gələn ilin birinci rübündə TAP-ın da tam gücü ilə fəaliyyət göstərəcəyi bildirilir

*Əvvəli 1-ci səh.*

"Şahdəniz" konsorsiumu qazı Avropaya ixrac etmək üçün iddialı olan dörd kəmər sırasından TAP-ı 2013-cü ilin ortalarında seçib. Seçim prosesində TAP səkkiz şərtə görə üstünlük qazanıb. Bunlardan birincisi kəmərin kommersiya səmərəliliyidir. İkinci, üçüncü və dördüncü əsas şərtlər layihənin icra mümkünlüyü, həmçinin maliyyə baxımından icra mümkünlüyü və texniki layihələndirmədir. Daha bir vacib məsələ kimi tənzimləmə və şəffaflıq götürülüb. Altıncı amil kəmərin təhlükəsizliyi və səmərəli istismarının mümkünlüyüdür. TAP, eləcə də digər kəmərlərdən genişləndirmə imkanlarının olduğuna görə fərqlənir. Nəhayət, qiymətləndirmə zamanı ictimai maraqlarla bağlı faktorlar da nəzərə alınıb.



TAP strateji əhəmiyyətli layihədir. O, Avropanın mavi yanacağa olan tələbatını ödəyəcək və enerji təhlükəsizliyinə ciddi dəstək verəcək.

Layihədə SOCAR (20 faiz), BP (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləri iştirak edir.

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Həmin vaxtdan da tikinti işlərinə başlanıb.

Kəmərlə Azərbaycan qazının Yunanıstandan, Albaniyadan, Adriatik dənizinin altından keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya daşınması nəzərdə tutulur. Bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşdiriləcək.

TAP-ın çəkilişi inşaatçılardan böyük səriştə və məsuliyyət tələb edib. Belə ki, xəttin keçdiyi yol fərqli coğrafi şəraitdə yerləşir. Marşrut boyu kəmərin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdədir. Ən yüksək hissəsi isə Albaniya dağlarında 1800 metrə çatan zirvələrdən keçir.

TAP-ın bir sıra yerüstü obyektləri, məsələn, ölçmə və kompressor stansiyaları da var. Tikinti işlərinin çətinliyi həm də onunla bağlı idi ki, digər kəmərlərdən fərqli olaraq, TAP-ın bir hissəsi suyun altından keçir. Xəttin diametri əsasən 48 düymdür, yalnız dənizin altından keçən hissəsində 37 düymlük borular düzülüb.

Diqqətçəkən faktdır ki, kəmərin dəniz hissəsində ümumi çəkisi 100 min ton olan təxminən 9 min boru istifadə edilib. Borular Adriatik dənizinin dibində - İtaliya sularında 25, beynəlxalq sularda 43 və Albaniya sularında 37 kilometr məsafə boyu uzanıb. "Castoro Sei" gəmisi gündə orta hesabla 1,2-2,8 kilometr boru düzüb.

Bütün bu işlərin mürəkkəbliyinə baxmayaraq, inşaatçılar indiyədək onların öhdəsindən layiqincə gəlib.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Kəmərin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

TAP layihəsinin reallaşması ilə Avropa bazarlarına yeni mənbədən qaz çıxışına şərait yaranacaq.

Layihənin İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə ara keçid boru kəmərləri vasitəsilə İsveçrə, Avstriya, Fransa, Almaniya, Belçika, hətta İngiltərəyə təbii qazın ötürüləcəyinin mümkün olacağı istisna edilmir. TAP-ın əhəmiyyəti həm də ondadır ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru və İon-Adriatik qaz kəmərinin təchizatını asanlaşdıra bilər.

Qarşıda TAP-ın tam gücü ilə işə başlamasına, qazın Avropa bazarına vaxtında çatdırılmasına, tranzit və istehlakçı ölkələrin hər birinin iqtisadi maraqlarının təmin edilməsinə nail olmaq kimi əsas vəzifə dayanır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

Əvvəli 1-ci səh.

## Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi beynəlxalq səviyyədə də nümunə göstərilir









# Həlledici qərarların yüksək səviyyədə icrası ölkəmizdə virusu nəzarətolunan həddə endirib

### Qarşıda duran ən mühüm vəzifə isə əldə olunmuş uğurun qorunub saxlanması və möhkəmləndirilməsidir

Təsadüfi deyil ki, Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi və əldə etdiyi nailiyyətlər beynəlxalq səviyyədə də nümunə göstərilir.

Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında çıxışı zamanı da bu məsələni xüsusi vurğuladı: "Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmasda idik. Bu gün də bu təmaslar davam edir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Bu, həqiqətən də belədir. Yəni görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi - bütün bunlar, əminəm ki, bizim mübarizədə əsas rol oynamışdır. Ona görə bu gün də bu təmaslar davam edir və əminəm ki, biz birgə səylərlə bu məsələnin - COVID-in nəzarətdə saxlanmasını təmin edəcəyik".

Bəli, zamanında qəbul edilən qərarların yüksək keyfiyyətlə icra edilməsi ölkəmizdə virusu nəzarətolunan səviyyəyə endirdi.

Səhiyyə sahəsinin qısa zamanda koronavirusla mübarizəyə istiqamətlənməsi də əldə olunan nailiyyətlərdə müstəsna rol oynadı. Hazırda COVID-19 xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir ki, bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilib, ən müasir avadanlıqlarla təchiz olunub.

Pandemiya ilə mübarizə istiqamətində görülən əsaslı işlər sayəsində son aylar ölkəmizdə yoluxma sayı müsbət tendensiya halını alıb, bu isə öz növbəsində yumşalmalara sürətli keçidə rəvac verib. Avqustun 5-dən start götürən yumşalmaların növbəti mərhələsi isə ötən çərşənbə axşamından tətbiq edilməyə başlanılıb.

Belə ki, sentyabrın 8-dən restoranların daxildə xidmət göstərmələrinə icazə verilib. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyət aradan götürülüb. Lakin avtobus və qatar ilə şəhərlərarası sərnişin daşımaya tətbiq edilən qadağa hələ də qüvvədədir. Yəni vətəndaşlar yalnız şəxsi avtomobilləri ilə bölgələrə gedib-gələ biləcəklər.

## Təhsil ocaqlarında təhlükəsiz sağlam mühitin yaradılması ən mühüm məsələlərdəndir

Artıq ümumtəhsil məktəbləri üçün 2020-2021-ci dərs ilinə aid əsas və uyğunlaşdırılmış tədris planları, "Tədris planlarına dair qeydlər" Təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilib. Əmrə əsasən, sentyabrın 15-dən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti əyani formada həftədə 2 dəfə, digər şəhər və rayonların ümumi təhsil müəssisələrinin fəaliyyəti isə əyani formada həftədə 3 dəfə tətbiq edilməklə tədris planlarına müvafiq təşkil olunacaq.

Səhiyyə Nazirliyinin Səhiyyənin Təşkili şöbəsinin məsləhətçisi Aynurə Zeynalova bildirib ki, hazırda ölkənin təhsil ocaqlarında təhlükəsiz sağlam mühitin yaradılması ən vacib məsələlərdəndir: "Qaydalara görə, orta məktəblərdə şagird sayından asılı olaraq, tibbi kabinet ayrılmalı, burada ixtisaslı kadrlar işləməlidir. Həmin kabinetlərdə çalışan tibb bacıları uşaqların sağlamlığını nəzarətdə saxlamalı, ehtiyac olduğu anlarda dərhal ilkin yardım göstərməlidir. Xəstəliyi keçirən uşaqlar həkim nəzarətində olmalı, şagirdlər mütəmadi olaraq, profilaktik baxışdan keçirilməli və hər hansı bir xəstəliyə şübhəli olanlar dərhal təcrid edilməlidir".

Nazirlik rəsmisinin sözlərinə görə, təhsil müəssisələrinin açılması havaların soyuması və nəticə etibarilə, xəstəliklərin baş qaldırması dövrünə təsadüf edir: "Payız-qış fəsillərində havaların soyuması, təlim-tərbiyə ocaqlarında uşaq və yeniyetmələrin bir-biri ilə yaxın təmasda olması və bəzən immunitetlərinin zəifliyi, otaqların sıxlığı, əks epidemik rejimin tam gözlənilməməsi tənəffüs yollarının kəskin infeksion xəstəliklərinə səbəb olur. Uşaq və yeniyetmələrin infeksiyalara qarşı müqavimətini artırmaq üçün onların rasional qidalanması, gigiyenik gün və dərs rejimi, təlim-tərbiyə ocaqlarında və evdə daim optimal şərait ilə təmin olunması vacibdir. COVID-19 pandemiyası dövründə təhsil müəssisələrində nəzərdə tutulmuş əlavə tədbirlər barədə qərarların dərhal verilib, həyata keçirilməsi təhsil və səhiyyə sistemləri üçün böyük bir məsuliyyətdir. Uşaqlar və gənclər UNICEF, ÜST və Səhiyyə Nazirliyi kimi etibarlı mənbələr vasitəsilə COVID-19 virusu haqqında daim məlumatlandırılmalıdır".

## Uşaq bağçalarının açılması zamanı müvafiq sanitar-gigiyenik qaydaların təmin edilməsi şərtdir

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq, 1 oktyabr tarixdən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə, 15 sentyabrdan isə digər rayon və şəhərlərdə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçalarının fəaliyyətinə icazə verilib.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda bağçaların bir qədər gec, 1 oktyabr 2020-ci il tarixdən açılmasının səbəbi əhalinin sayı və sıxlığının daha yüksək olmasıdır. Bu, həm də bağçalarda müvafiq hazırlıqların görülməsi, dezinfeksiya işlərinin aparılması üçün daha uzun müddətin tələb olunması ilə əlaqəlidir.

Eyni zamanda bu müddətdə bağça tərbiyəçiləri və texniki işçilər bağçaların yeni qaydalarla açılması və idarə edilməsinə dair təlimatlandırılacaq, oyun, yataq və digər otaqlar xüsusi qaydalarla təşkil olunacaqdır.

Uşaq bağçalarının açılması zamanı müvafiq sanitar-gigiyenik qaydaların təmin edilməsi vacib şərtdir.

## COVID-19-la bağlı ictimai nəqliyyatdan istifadə edənlərə vacib müraciət edilib

Aylardır dövlətimiz tərəfindən aparılan gərgin mübarizə, vətəndaşlarımızın qoyulan qaydalara məsuliyyətlə riayət etməsi səbəbindən ölkəmizdə normal həyata dönüş sürətlənib. Hazırda isə qarşıda duran ən mühüm vəzifələrdən biri əldə olunmuş uğurun qorunub saxlanması və möhkəmləndirilməsidir. Qarşıdan müxtəlif xəstəliklərin aktivləşdiyi payız və qış mövsümü gəldiyinə görə, bu məsələ xüsusi aktuallıq kəsb edir. Vətənimizdə yumşalmalara gedilməsi, xeyli məhdudiyyətin aradan qaldırılması pandemiyanın başa çatması anlamına gəlməməlidir və insanlarda arxayınlıq yaratmamalıdır. Unudulmamalıdır ki, yumşalmalardan sonra bəzi ölkələrdə xəstələrin sayında artım müşahidə olunur ki, bu, hər birimizi daha məsuliyyətli olmağa sövq etməlidir.

Sözügedən məsələ ilə bağlı DİN Baş DYP İdarəsi də şəhərdaxili ictimai nəqliyyat vasitələrindən istifadə edən hərəkət iştirakçılarına müraciət edib. Qurumdan verilən məlumata görə, son vaxtlar paytaxt Bakıda fəaliyyət göstərən şəhərdaxili avtobus marşrutlarında bəzi sürücü və sərnişinlərin tənəffüs yollarını qoruyan tibbi maskalardan istifadə etməmələri, eləcə də avtobuslarda həddən artıq sərnişin sıxlığının yaşanması müşahidə edilir: "Sərnişinlərin məsafə gözləmədən bir-birləri ilə yaxın təmasda olmaları, onların koronavirus (COVID-19) infeksiyasına kütləvi şəkildə yoluxma riskini artırır və son bir neçə gündə ölkə ərazisində yoluxma sayının yüksəlmə səbəblərinin daha çox məhz bu faktorla əlaqəli olması ehtimal edilir.

Qeyd olunan halların qarşısının alınması məqsədilə DİN Baş DYP İdarəsi bir daha hərəkət iştirakçılarından, xüsusilə ictimai nəqliyyat vasitələrindən istifadə edən sərnişinlərdən xahiş edir ki, özlərinin və yaxınlarının sağlamlığının qorunması naminə, habelə bu tələblərin yerinə yetirilməməsinə görə inzibati məsuliyyətə cəlb edilməmələri, eləcə də xüsusi karantin rejiminin yenidən sərtləşdirilməməsi üçün mütləq qaydada tibbi maskalardan istifadə etsinlər və avtobuslarda mümkün qədər daha çox sosial məsafənin saxlanılmasının vacibliyini nəzərə alaraq, sərnişinlərin sayı nisbətən artıq olan ictimai nəqliyyat vasitələrinə minməkdən çəkinsinlər".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## 16 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə ev verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Ağstafa rayonunda inşa etdirilmiş 16 fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin və Ağstafa Rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak edib.

Tədbirdə qeyd olunub ki, Prezident İlham Əliyevin sosial siyasətinin əsaslarından biri də həssas əhali qruplarına xüsusi qayğının ilbəil artırılmasıdır. Sosial müdafiə proqramlarından biri də şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatıdır və həmin proqram ildən-ilə genişləndirilir. Dövlət başçısının tapşırığına əsasən, bu il şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev veriləcək. Ağstafa rayonunda təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 584 mənzil və fərdi ev (o cümlədən 554 mənzil və 30 fərdi ev) verilib. Qalan mənzillər və fərdi evlər də ilin sonunadək veriləcək.

Ümumilikdə ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8172 mənzil və fərdi ev təqdim edilib. Həmçinin nazirlik tərəfindən müharibə əlilləri və onlara bərabər tutulan şəxslər indiyədək 6900 minik avtomobili ilə təmin olunub.

Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların rifahına göstərilən yüksək qayğıya, yeni fərdi yaşayış evləri ilə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## Cari ilin 8 ayında əhalinin sosial müdafiəsinə əlavə 782,7 milyon manat vəsait xərclənib



Əvvəli 1-ci səh.

Cari ildə dövlət başçısının bir sıra sosial obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakı bunu bir daha sübut edir.

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, eləcə də bu sahədə aparılan uğurlu islahatlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) prezidenti Yoakim Bröyer Azərbaycanda sosial sahədə aparılan islahatları, əldə olunan uğurlu nəticələri yüksək dəyərləndirib. O, həmçinin dövlətimizin bu sahədə gördüyü işlərin, pandemiya dövründə sosial təminatın əhalinin rifahına daha müsbət təsir göstərdiyini vurğulayıb. Eyni zamanda sosial sahədə atılan addımların təqdirəlayiq olduğunu bildirib. Bir daha aydın olur ki, dövlətin vətəndaşın sosial qayğısına qalması əhali tərəfindən olduğu kimi, beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir.

Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilən məlumata görə, cari ilin yanvar-avqust aylarında ümumilikdə 2 milyon 600 minə yaxın şəxsə pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım verilib. Həmin sosial təminat növləri üzrə ölkə vətəndaşlarına yanvar-avqust aylarında 3,8 milyard manatdan çox vəsait ödənilib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 25,7 faiz və ya 782,7 milyon manat çoxdur.

İlk baxışdan açıqlanan bu rəqəmlər sadəcə statistika kimi görünə bilər. Lakin mahiyyətinə baxdıqda görürük ki, dövlət pandemiya dövründə sosial sahəyə əlavə olaraq 782,7 milyon manat vəsait xərcləyib. Bu da 10 milyon əhalisi olan dövlət üçün 8 ayda böyük rəqəmdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycanda koronavirus infeksiyasından 150 nəfər sağalıb, 142 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 150 nəfər müalicə olunaraq sağalıb, 142 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 37 min 874 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 35 min 269 nəfər müalicə olunaraq sağalıb, 556 nəfər vəfat edib. Aktiv xəstə sayı 2049 nəfərdir.

Ötən müddət ərzində 988 min 268 test aparılıb. Dünənki test sayı isə 7290-dır.

# Paytaxt sakinlərinin növbəti arzusu reallığa çevrildi

### Mərdəkan-Zuğulba yolu üzərindəki piyada keçidinin dizaynı italiyalı mütəxəssis tərəfindən hazırlanıb

Son 16 ildə Azərbaycanda nəhəng infrastruktur layihələri həyata keçirilib. Onların bir çoxu beynəlxalq və regional əhəmiyyətli layihələrdir. Bu gün Şərqlə Qərbi birləşdirən nəhəng layihələrin təşəbbüskarı da Azərbaycandır. Həmin istiqamətdə görülən işlərin sayəsində indi Çindən Avropaya və əks istiqamətə ölkəmiz üzərindən yüklər daşınır.



Bununla yanaşı, ölkə daxilində də infrastruktur layihələrinin icrasına xüsusi önəm verilir. Ötən 16 il ərzində çoxsaylı yol-nəqliyyat infrastrukturu, enerji və qaz verilişi xətlərinin çəkilməsi layihələri icra edilib. Bu gün Azərbaycanda yol infrastrukturu yüksək səviyyədə qurulub. Elə bu səbəbdən də ölkəmiz avtomobil yollarının inkişaf səviyyəsinə görə dünyada 34-cü yerdədir.

Hazırda kəndarası yolların tikintisinə başlanılıb. Bu gün Azərbaycanın ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar çəkilir. Həmin yollar kənd camaatının gediş-gəlişini asanlaşdırmaqla bərabər, istehsal olunan kənd təsərrüfatı məhsullarının bazarlara itkisiz daşınmasını da təmin edir. Bu məsələdə daha bir xoş soraq odur ki, qarşıdakı bir neçə ildə bütün kəndarası yolların asfaltlaşdırılmasının başa çatdırılacağı gözlənilir.

Prezident İlham Əliyev ölkəmizin paytaxtı Bakı şəhərində də yol infrastrukturunun yüksək səviyyədə inkişafına xüsusi diqqət yetirir. Dövlət başçısının sentyabrın 9-da Mərdəkan-Zuğulba avtomobil yolunda yerüstü piyada keçidinin açılışında iştirakı bunu bir daha təsdiq edir. Keçid Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində inşa edilib.

Dövlət başçısına məlumat verilib ki, ümumi uzunluğu pandustlarla birlikdə 180 metr olan keçid üç dayaq üzərində torşəkilli metal konstruksiyalardan quraşdırılıb. Onun orta hissəsinin uzunluğu 52, eni 4,5 metrdir. İtaliyalı dizaynerin təxəyyülünün məhsulu olan bu keçidin konstruksiyaları yerli mütəxəssislər tərəfindən hazırlanıb.

Yerüstü piyada keçidi tikilərkən ətrafdakı yaşayış massivi, məktəbin mövcudluğu, insanların daha çox yolun bu hissəsindən istifadəsi və digər amillər nəzərə alınıb. Keçidin istifadəyə verilməsi bu yoldan istifadə edən insanların təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaq.

Xatırladaq ki, ötən 16 il ərzində ölkənin paytaxtında 113 piyada keçidi istifadəyə verilib. Onlardan 41-i yerüstü, 72-si isə yeraltı piyada keçididir. Bununla yanaşı, ölkə əhəmiyyətli magistral yollarda da 64 yeraltı və yerüstü piyada keçidi inşa edilib. Həmçinin Qəbələ, Quba, Zaqatala rayonlarının hər birində piyada keçidləri tikilərək əhalinin ixtiyarına verilib. Hazırda ölkə üzrə avtomobil yollarında 9 ərazidə yeni piyada keçidlərinin inşası həyata keçirilir.

***R.KAMAL,***
***"Azərbaycan"***




● Azərbaycanda könüllülük hərəkatının tarixi



# Sağlam nəsil, sağlam gələcək

> “Gənclərdə bu işlərlə məşğul olmaq üçün maraq və həvəs vardır. Ümumiyyətlə, könüllülük işi çox nəcib işdir və hər bir gəncin öz dövlətinə bağlılığını göstərir. Eyni zamanda burada təcrübə əldə etmək üçün də yaxşı imkanlar vardır. Onlar gələcək fəaliyyətlərində də əlbəttə ki, bu təcrübədən istifadə edəcəklər”.
>
> **İlham ƏLİYEV**

### Dəyərlərin əzəməti

Ehtiyacı olana kömək göstərmək xalqımızın ruhundadır. Bu torpaqlarda yaşayan insanlar əsrlərdir ki, könüllülüyü bir dəyər kimi yaşadıb, əmanət olaraq nəsillərdən-nəsillərə ötürüb. Azərbaycan insanları həmişə xeyir-şərdə, ictimai işlərdə birgə çalışıblar, bir-birlərinə dəstək olublar. Yükün ağır-yüngüllüyünə baxmayaraq, ən çətin maneələri yollarından kənarlaşdırıblar. Tarixin inkişaf məntiqi göstərir ki, el-obalarımızda insanları nəcib niyyətlər ətrafında bir araya gətirən, ən böyük fədakarlıq nümunəsini özləri ortaya qoyan sayılıb- seçilən ağsaqqallarımız, ağbirçəklərimiz həmişə olub, yenə də var. Onlar xeyirxahlığı, könüllü və təmənnasız kömək ənənələrini yaşadıb, yenə də yaşadacaqlar. Xalqın ruhuna hər zaman nəfəs verən, milli şüuru zəifləməyə qoymayan ən böyük qüvvə bu dəyərlərin əzəmətidir.

Bu gün ölkənin inkişafı üçün var qüvvəsini əsirgəməyən, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin öz məqsədlərinə çatmasına töhfə verməkdən ötrü çalışan, Vətənə sevgisini əməli işdə göstərən gənc könüllülərimiz də eyni ruhun daşıyıcısıdırlar. Könüllülük fəaliyyəti Azərbaycan cəmiyyəti üçün, əslində, yenilik deyil, tarixi irsimizdən gələn ənənələrdir.

### Bu gün və gələcək qarşısında məsuliyyət

Son illər Azərbaycanda həyata keçirilən irimiqyaslı tədbirlər ölkə gənclərinin xüsusi fəallığı ilə müşayiət olunur. Müxtəlif sahələri əhatə edən çoxsaylı beynəlxalq əhəmiyyətli tədbirlərdə ölkə gəncləri öz bacarığı, əzmi, intellektual səviyyəsini layiqli şəkildə nümayiş etdirirlər. Gənclərimizin könüllü olaraq yaxından iştirak etdiyi belə tədbirlər cəmiyyətdə böyük rəğbətlə qarşılanır.

Azərbaycanda könüllülük fəaliyyətinin böyük ictimai hərəkata çevrilməsi Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra apardığı dövlət gənclər siyasətinin müsbət nəticələridir. Prezident İlham Əliyevin yeni inkişaf mərhələsində uğurla davam etdirdiyi bu siyasət Azərbaycan gəncliyinin ümumdövlət mənafeləri ətrafında bir araya gətirilməsində böyük rol oynayır. Gənclərdə Vətənə, ölkəmizin tarixinə, milli-mənəvi dəyərlərinə hörmət ruhu, cəmiyyətin bu günü və gələcəyi qarşısında sosial məsuliyyət hissi aşılayır.

Azərbaycanda rəsmi şəkildə könüllülük hərəkatının tarixi 1998-ci ildə reallaşdırılmağa başlanıb. O zaman Gənclər və İdman Nazirliyi, BMT-nin İnkişaf və Könüllülər Proqramı ilə birlikdə 650 gənci əhatə edən ilk pilot layihə həyata keçirilib. 1998-2000-ci illərdə reallaşdırılan proqram nəticəsində könüllülük prinsipləri daha geniş auditoriyada təbliğ olunub və nəticədə ilk könüllü komandası yaradılıb. Ulu Öndər Heydər Əliyev tərəfindən başlanmış bu hərəkat hazırda geniş vüsət alıb, xüsusilə gənclərimizin həyat tərzinə çevrilib.

Müəyyən müddət ərzində könüllülük fəaliyyətinə dövlət dəstəyi mexanizmləri də formalaşdırılıb. Xüsusilə, 2009-cu ildə qəbul edilmiş “Könüllü fəaliyyət haqqında” qanun Azərbaycanda bu sahənin yeni inkişaf mərhələsinə qədəm qoymasına yol açıb. 10 maddədən ibarət bu qanunla respublikada könüllülüyün hüquqi əsasları müəyyənləşdirilib.

Bir faktı da qeyd edək ki, Azərbaycan MDB dövlətləri arasında könüllülərin fəaliyyəti ilə bağlı qanun qəbul edən ilk ölkələrdəndir.

### Könüllülük hərəkatı ilə bağlı ilk böyük sınaq 2012-ci ildə oldu

Azərbaycanda keçirilmiş “Avrovisiya” Beynəlxalq Mahnı Müsabiqəsinin təşkilati işlərinə 1200-dək könüllü cəlb edildi. Gənclər bu sınaqdan uğurla çıxdılar və nə qədər böyük potensiala malik olduqlarını göstərdilər. Bakıda keçirilmiş ilk Avropa Oyunları bu sahədə öz işini daha geniş miqyasda aparmalı oldu. Bu mötəbər çoxnövlü idman turnirində 17 minə yaxın gənc könüllülük fəaliyyətinə cəlb edildi. Həmin tədbirdə iştirak üçün 20 mindən artıq insan müraciət etmişdi. Onların arasından hazırlığı, xarici dil bilikləri yüksək olanlar seçilib bu işlərə cəlb edildi. Daha sonra “Formula-1”, IV İslam Həmrəyliyi Oyunları, humanitar forumlar və digər irimiqyaslı tədbirlərdə könüllülərimiz xüsusi fəallıq göstərdilər. Onların hər birinə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın imzası ilə diplomlar təqdim edildi. Beləliklə, ictimai hərəkat kimi ölkəmizdə könüllülük fəaliyyətinin əhatə dairəsi genişləndi.

Dövlət başçısı gənclərin könüllülük hərəkatında fəal iştirakına xüsusi diqqət yetirir. Azərbaycan gənclərinin bütün toplantılarında Prezident İlham Əliyev bu hərəkatın rolunu xüsusi qeyd edir.

### Könüllülük mahiyyətcə ölkə hüdudlarından kənara çıxan nəcib bir işdir

Könüllülər Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmlənməsinə, səmərəli əməkdaşlıqların qurulmasına da əhəmiyyətli töhfələr verirlər. Gənclərimiz xaricdən gələn qonaqlarla ünsiyyətdə olur, onları müşayiət etməklə yanaşı, Azərbaycanın mədəniyyətini, tarixini, ölkəmizlə bağlı həqiqətləri təbliğ edirlər. Bu, özlüyündə böyük bir missiyadır. Sevindirici haldır ki, gənclərimiz bu missiyanı uğurla yerinə yetirirlər.

Bü il dünya ən yeni tarixinin çətin sınaqlar dövrünü yaşayır. Ötən ilin sonlarından müxtəlif ölkələrdə işartıları görünməyə başlayan COVID-19 infeksiyası qlobal pandemiyaya çevrilərək bütün bəşəriyyət üçün böyük təhlükə yaratdı. Belə bir dövrdə könüllülərin fəaliyyəti nümunəyə çevrildi. Onlar tənha yaşayan ahıl vətəndaşlara, əlilliyi olan şəxslərə, aztəmantlı ailələrə müxtəlif yardım aksiyalarında fəallıq göstərdilər, başqalarına lazımlı olduqlarını hiss etdirdilər. Bu, əslində, ulularımızdan gələn nəcib ənənələrin yeni formada təqdimatıdır. ASAN Könüllüləri Təşkilatı formalaşdırıldı. Bu xidmətin qısa zamanda vətəndaşlar arasında böyük nüfuz qazanmasında, Azərbaycan brendinə çevrilməsində ASAN Könüllülərinin də çox böyük rolu oldu. “Regional İnkişaf” İctimai Birliyi, “Bir” Tələbə Könüllüləri və digər könüllü hərəkatları yarandı. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşdırıldı.

Azərbaycan dövləti könüllülük fəaliyyətinin genişləndirilməsinə kömək göstərməklə gənclərin fərdi inkişafına da təkan verir. Onlar üçün bərabər imkanlar mühiti formalaşdırır, öz potensiallarını, komanda işi bacarıqlarını reallaşdırmaqdan ötrü əlverişli şərait yaradır, gənclərdə sosial məsuliyyət hissini gücləndirir. Onların potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etməyə çalışır. Bütün bunlarla da ölkəmizin bu günü və gələcəyi üçün sağlam bir nəsil yetişdirir.

*İradə ƏLİYEVA,*
*“Azərbaycan”*

● ”Könüllülər ili”nin gəncləri

# Onlar sabaha böyük ümidlə baxırlar

**Müasir Azərbaycanın memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyası hakimiyyətə qayıdışından sonra digər sahələr kimi, gənclərə göstərilən diqqət və qayğı da əsas vəzifələrdən birinə çevrildi. Bununla da ölkəmizdə gənclər hərəkatının əsası qoyuldu.**





1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1996-cı ildə Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi, 1997-ci il fevralın 2-nin Gənclər Günü elan edilməsi ilə bağlı fərmanın imzalanması dövlət gənclər siyasətinin uzunmüddətli strategiyasını müəyyənləşdirdi. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Qeyd edək ki, indi Azərbaycanda dinamik gənclər hərəkatı mövcuddur. Qəbul olunan dövlət proqramlarında gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, bu aparıcı qüvvənin yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, təhsil və məşğulluğuna diqqəti artırmaq kimi məsələlər prioritet olaraq qalmaqdadır. Qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsində isə söz yox ki, ali təhsil müəssisələrində fəaliyyət göstərən tələbə gənclər təşkilatlarının rolu böyükdür.

Gəncə Dövlət Universitetində gənclərin hərtərəfli inkişafını təmin etmək məqsədilə nəzərdə tutulan tədbirlər də dayandırılmamışdır. İstər pandemiya başlamazdan əvvəl, istərsə də universitetin tələbə gənclər təşkilatı öz fəaliyyətini daha da genişləndirmiş, tədbirlərin onlayn qaydada keçirilməsini təmin etmişdir. Onların bacarıqlarının, istedadlarının daha da inkişafı məqsədilə tez-tez intellektual yarışların, əyləncəli konsert proqramlarının virtual təşkilinə xüsusi diqqət yetirilmişdir. Bu baxımdan mütəmadi olaraq keçirilən istər fərdi, istərsə də fakültələrarası “Bilik kuboku” intellektual çempionat, “Mən bacarıram” layihəsi, əl işlərindən ibarət “Qızıl əllər” adlı sərgilər böyük əhəmiyyət kəsb edir.

Tələbə gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların bir-birlərini daha yaxşı tanımaları, əlaqələrin möhkəmlənməsi, eyni zamanda, Gəncənin, ölkəmizin mədəniyyətini və tarixini daha dərindən öyrənmək üçün şəhərdə fəaliyyət göstərən muzeylərə, eləcə də ətraf rayonlara onlayn ekskursiyalar xüsusi maraq doğurur. Bundan başqa, tələbələrə humanizm anlayışını aşılamaq, belə nəcib hissləri inkişaf etdirmək məqsədilə Gəncə şəhərində yerləşən valideyn himayəsindən məhrum uşaqların yaşadıqları uşaq evlərinə baş çəkilir, onlar üçün müxtəlif müsabiqələr, rəsm yarışları təşkil edilir.

Bu gün gənclərimizin təhsili ilə yanaşı, milli ruhda tərbiyəsi, onlarda daim Vətənə sevginin aşılanması da çox mühüm məsələdir. Əslində elə təhsilimizin ali məqsədi də milli ruhlu kamil vətəndaşlar yetişdirməkdir. Milli ruh özünüdərkin, vətənpərvərliyin, qədirbilənliyin, sədaqətin, xeyirxahlığın, humanizmin, iradənin və digər mənəvi keyfiyyətlərin nəticəsi kimi formalaşır. Bu, ilk növbədə, konkret şəxsiyyətin bütün varlığında yaşatdığı dəyərlərə bağlılığıdır. Qloballaşma dövründə gənclərimizi yalnız bu bağlılığın gücü ilə ziyanlı təsirlərdən qoruya bilərik. Tələbə gənclər təşkilatı bu məqsədlə bir sıra maarifləndirici tədbirlər həyata keçirir. Erkən və gecikmiş nikahlar, onların fəsadları, narkotikanın və alkoqollu içkilərin yaratdığı problemlərlə, həmçinin QİÇS-ə qarşı mübarizə ilə bağlı söhbətlər və digər tədbirlər öz müsbət nəticələrini verir.

Universitetimizin tələbə gənclər təşkilatı gənclərdə yüksək vətənpərvərlik ruhunun aşlanması üçün də mütəmadi olaraq xüsusi layihələr reallaşdırır. Bu məqsədlə respublikamızın həyatında mühüm əhəmiyyətə malik tarixi günlər, Azərbaycanın müstəqilliyi uğrunda canından keçən Milli qəhrəmanlar haqqında ətraflı məlumatların əldə edilməsi və daha da zənginləşdirilməsi üçün onlayn qaydada “dəyirmi masa”lar təşkil olunur.

Gəncə Dövlət Universiteti şəhərdə fəaliyyət göstərən orta məktəblərlə də sıx əməkdaşlıq edir. Tələbələrin universitetin baza məktəbləri olan 4 və 39 nömrəli tam orta məktəb şagirdlərinin iştirakı ilə fənn olimpiadalarının, şeir gecələrinin, bilik yarışlarının təşkili yaddaqalan olur. Universitetin təşkilatçılığı ilə Gəncə şəhər və ətraf rayon məktəbləri şagirdlərinin kimya və biologiya fənləri üzrə olimpiadalarının təşkili və burada olimpiadalarda yer tutmuş şagirdlərin universitet rəhbərliyi tərəfindən fəxri fərmanlara layiq görülməsi, onlara qiymətli hədiyyələrin verilməsi müsbət qarşılanır.

Qeyd edək ki, həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, universitet tələbələri istər şəhər, istərsə də respublika üzrə keçirilən intellektual yarışlarda böyük uğurlar əldə edirlər. “Mer kuboku”, “Regionlar kuboku”, “Nə? Harda? Nə zaman?” çempionatı, “Bilik kuboku” və digər yarışlarda daim qələbə qazanaraq ən yüksək uğurlara imza atırlar.

Bundan başqa, gənclər respublika əhəmiyyətli tədbirlərdə də fəallıq göstərərək könüllülük hərəkatına öz töhfələrini verirlər. Qazanılan bu uğurlar isə mükafatsız qalmır. Universitetin tələbə gənclər təşkilatı dəfələrlə Gənclər və İdman Nazirliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən “Fəxri diplom”lara, “Təşəkkürnamə”lərə və müxtəlif mükafatlara layiq görülmüşdür.

*Orxan MƏMMƏDOV,*
*Gəncə Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının sədri*

● Tribuna

# İnsanlara yardım etmək, onlardan təşəkkür eşitmək bizi çox sevindirir

**Könüllülük cəmiyyət üçün çox böyük bir dəyərdir. Bu dəyər insanları vahid niyyət ətrafında birləşdirir. Vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin çox uğurlu formatı kimi özünü doğruldur. Bu gün bütün dünyada ictimai və cəmiyyət maraqları naminə təmənnasız əmək sərf edən insanların sayı durmadan artır.**

Biz, könüllü gənclər bununla öz bacarıqlarımızı inkişaf etdirir, konkret sahələrdə iş təcrübəsi qazanır, müxtəlif xarakterli insanlarla tanış olur, özümüzə sosial-işgüzar çevrə formalaşdırırıq. Bu iş həm yaşadığımız ölkəni, həm də ümumən dünyanı qəlbən sevmək, cəmiyyəti müsbət mənada dəyişmək, irəli aparmaqdır.

Azərbaycanda könüllülük fəaliyyətinin təşviqi məqsədilə dövlətimiz tərəfindən son illər zəruri addımlar atılmaqdadır. Ölkə Prezidentinin sərəncamı ilə 2020-ci il “Könüllülər ili” elan olunub. Könüllülüyün tarixi, bəşəriyyətin özü qədər qədimdir. Bu fəaliyyət insanların bir-birinə ehtiyac duyduqları andan başlanır. Ümumi niyyətlər ətrafında birlik, əməkdaşlıq ehtiyacı fərdləri bir-birinə bağlayır.

Xatirimdədir, 2012-ci ildə ölkəmizdə keçirilən “Avrovisiya” Beynəlxalq Mahnı Müsabiqəsinin təşkili işinə cəlb olunmuş gənc könüllülər nə qədər böyük potensiala malik olduqlarını göstərdilər. Azərbaycan gəncliyinin bu potensialının üzə çıxarılmasında, onlara meydan verilməsində müsabiqənin Təşkilat Komitəsinə rəhbərlik edən ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və



ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çox böyük rolu oldu. Yüzlərlə gənc bu beynəlxalq tədbirin uğurla keçməsinə səylə çalışdılar. Könüllülərimiz öz kreativlikləri, təşəbbüskarlıqları, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs verirlər.

2 ildən çoxdur ki, könüllü kimi fəaliyyət göstərirəm. İndiyədək bir çox müəssisədə bu sahədə çalışdığıma baxmayaraq, DOST Agentliyi mənə böyük təcrübə və həyatıma rəng qatan dostluqlar qazandırıb. Hər gün müxtəlif xarakterli və fərqli düşüncə, ideyalara malik insanlarla qarşılaşıram. Bu isə hadisələrə olan yanaşmamda böyük dəyişikliklərə yol açır. Gələcək karyerasını dövlət qurumunda davam etdirmək istəyən gənclərə DOST Agentliyi çərçivəsində olan könüllülük proqramını tövsiyə edirəm. Çünki DOST Agentliyi ətrafında mütərəqqi ideyalara malik gəncləri toplayıb. Hər gün sosial həssas qrupa aid insanlara yardım etmək, onlardan təşəkkür eşitmək həqiqətən çox sevindiricidir.

*Səfiyyə BABAZADƏ,*
*könüllü*

● Xəbər

# “Könüllülər kuboku” çərçivəsində şahmat yarışları keçirilib

**Ağstafada yeniyetmə və gənclər arasında “Könüllülər kuboku”nun proqramına daxil edilmiş idmanın şahmat növü üzrə rayon birinciliyi uğrunda yarış keçirilib.**





Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə təşkil olunmuş yarış pandemiya dövrünün qaydalarına uyğun formada - açıq hava şəraitində, tələb olunan sosial məsafəyə əməl edilməklə keçirilmişdir. Reqlamentə uyğun olaraq yarışda 16-29 yaş qrupu üzrə 30 nəfər könüllü iştirak etmişdir. Gərgin idman mübarizəsi şəraitində keçirilən yarışda müvafiq yaş qrupları üzrə 1-ci yerə Elcan Cəfərov və Amin Musayev, 2-ci yerə Elvin Pirquliyev və Munis Məlikzadə, 3-cü yerə isə Bakıxan Həsənov və Ramil İbrahimov çıxmışlar. Yarışların sonunda qaliblərə Ağstafa Rayon Gənclər və İdman İdarəsinin diplom və hədiyyələri təqdim olunmuşdur.

Ağstafada “Könüllülər kuboku” proqramı çərçivəsində basketbol, yüngül atletika və mini futbol üzrə yarışların da təşkili nəzərdə tutulmuşdur. Bunun da əsas məqsədi pandemiya dövründə yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliğindən, eləcə də bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsindən ibarətdir.

*Sabir ƏLİYEV,*
*“Azərbaycan”*

# Azərbaycan ərazisində təxribat törətməkdə və terrorçuluğa cəhddə təqsirləndirilən iki erməni zabiti beynəlxalq axtarışa verilib

Bu gün Ermənistan yeni təxribat planları hazırlayaraq ən yüksək siyasi səviyyələrdə əsl niyyətinin münaqişənin sülh vasitəsilə həlli deyil, Azərbaycan torpaqlarının qanunsuz işğalının davam etdirilməsi olduğunu nümayiş etdirməkdədir. Son aylar Ermənistan tərəfinin cəbhədə törətdiyi təxribatlar işğalçı ölkənin nəinki danışıqlar aparmağa, əksinə, vəziyyəti hər vəchlə yenidən gərginləşdirməyə çalışdığından xəbər verir. Ermənistan tərəfinin təxribat xarakterli vaxtaşırı hücumları sülh prosesinin üzərindən xətt çəkməklə beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq hörmətsizlik xarakteri daşıyır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təcavüzkar əməllərin davamı olaraq, Ermənistanın xüsusi xidmət orqanlarının tapşırığı ilə respublikamızın təhlükəsizliyi zərərinə - ölkəmizin müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədilə yolların, əlaqə vasitələrinin dağıdılmasına yönəldilən partlayışlar, o cümlədən təxribatların, habelə ölkəmizə qarşı ağır və xüsusilə ağır cinayətlərin törədilməsi ilə vəzifələndirilmiş silahlı qüvvələrin diversiya-kəşfiyyat qrupunun komandiri, baş leytenant 1989-cu il təvəllüdlü Alaverdyan Qurqen Vladimiroviçin avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçib müdafiə mövqelərimizə basqın edərkən Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində saxlanılaraq hüquq mühafizə orqanlarına təhvil verilib. Bu barədə ictimaiyyətə ətraflı məlumat verilib.

Məlum olduğu kimi, 2020-ci il iyulun 12-dən başlayaraq Ermənistanın silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq kəskin eskalasiya yaratmaq məqsədilə iriçaplı artilleriya qurğularından istifadə etməklə mövqelərimizi ələ keçirmək məqsədilə atəşə tutub, o cümlədən təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasının dinc əhalisini hədəfə almaqla mülki əhaliyə qarşı müxtəlif cinayətlər törədiblər.

İyulun 12-dən başlayaraq Qazax rayonunun Xanlıqlar, Tovuz rayonun Ağdam və Dondar Quşçu kəndlərində dinc mülki əhaliyə qarşı törədilib, həmçinin avqustun 23-də diversiya-kəşfiyyat qrupunun icra etdiyi cinayət əməllərinin davam edən hərbi qarşıdurma fonunda baş verməsi Ermənistan silahlı qüvvələri tərəfindən planlaşdırılaraq törədilməsi və eyni xarakterli olması nəzərə alınmaqla həmin faktlarla bağlı başlanmış cinayət işləri bir icraatda birləşdirilərək Cinayət Məcəlləsinin müvafiq maddələrinə tövsif edilməklə sülh və insanlıq əleyhinə olan cinayətlər kimi qiymətləndirilib.

Qeyd edilənlərə əsasən təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində həbs qətimkan tədbiri seçilmiş Qurqen Alaverdyanın ifadəsi və digər istintaq sübutlara əsasən, Q.Alaverdyanın Azərbaycan Respublikasının işğal olunmuş ərazisində qanunsuz yaradılmış silahlı birləşmədə kəşfiyyat bölüyündə tağım komandiri olmaqla cinayətkar birliyin tərkibində təcavüzkar müharibənin aparılmasında iştirak etməsinə, habelə işğalçı Ermənistan tərəfindən yaradılmış cinayətkar birlikdə (təşkilatda) struktur bölməsinə rəhbərlik etməsinə, xidmət etdiyi qanunsuz silahlı birləşmənin komandiri Vazgen Vartanyanın göstərişi ilə 2020-ci il avqustun 23-də iki nəfər erməni hərbçisi ilə - Armen Camalyan və istintaqın hazırkı mərhələsində şəxsiyyəti məlum olmayan digər şəxslə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müdafiə mövqelərinə basqın etməsinə, habelə çoxsaylı mütəşəkkil dəstələrdən təşkil edilmiş cinayətkar birliyin (təşkilatın) digər üzvləri ilə birlikdə qanunsuz olaraq odlu silah və döyüş sursatı əldə edərək saxlamasına, gəzdirməsinə və qanunsuz olaraq döyüş sursatını, partlayıcı maddələri daşımasına, cinayətkar birliyin (təşkilatın) tərkibində odlu silahdan istifadə etməklə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması təhlükəsi yaradan partlayışlar, yanğınlar törətməyə, yəni, terrorçuluğa cəhd etməsinə, cinayətkar birliyin (təşkilatın) tərkibində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin iki nəfərdən çox üzvlərini milli ədavət və düşmənçilik niyyəti ilə, eləcə də terrorçuluqla əlaqədar qəsdən öldürməyə cəhd etməsinə, həmçinin çoxsaylı mütəşəkkil dəstələrdən təşkil edilmiş cinayətkar birliyin (təşkilatın) tərkibində partlayışlar törətməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən olunub.

Həmçinin Ermənistan Respublikasının vətəndaşları - Azərbaycan Respublikasının işğal olunmuş Kəlbəcər rayonunda yerləşən postlarında müdafiəni təşkil edən qanunsuz silahlı birləşmənin komandiri Vartanyan Vazgen Baxşikoviç və tağım komandiri Camalyan Armen Gneloviçin də eyni əməllər törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən onlar Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 228.3-cü (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), 276-cı (casusluq), 279.2-ci (silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə), 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, yaxud zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə), 29, 214.2.3-cü (terrorçuluğa cəhd), 29, 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) və digər maddələr ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə Baş Prokurorluğun təqdimatı əsasında məhkəmənin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

İstintaq idarəsi tərəfindən qeyd edilən şəxslər barəsində beynəlxalq axtarışın elan edilməsinə dair müvafiq qərarlar qəbul edilməklə, icra edilməsi üçün Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, həmçinin İnterpolun Milli Mərkəzi Bürosuna göndərilib.

Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məhkəmə məsuliyyətinə verilmələri məqsədilə Baş Prokurorluq tərəfindən zəruri və institusional tədbirlərin görülməsi təmin ediləcək.

# Müxalifət «Nikolsuz Ermənistan» etiraz kampaniyasına başlayır

## İşğalçı ölkədə ictimai-siyasi vəziyyət daha da gərginləşir

Əvvəli 1-ci səh.

Necə oldu ki, 2017-ci il qanuni seçkilərdən bir neçə ay sonra Nikol insanları yalançı bir gündəmlə küçələrə çıxara, hakimiyyəti ələ keçirə bilir. Bunu "Zorakı olmayan məxməri inqilab" adlandırır və "demokratiya qalası" elan edir. İndi isə Paşinyan müxalifətin taktikasına "antidemokratik" don geyindirməyə çalışır? Nə vaxtdan bəri o, demokratiyanın alfa və omeqasına çevrilib, bizə və cəmiyyətə demokratiya dərsi verməyə nə cürət edir? Küçədən gələn təbii ki, elə küçə yolu ilə çıxıb gedəcək.

Ölkədə dərinləşən sosial-iqtisadi böhran hazırda Paşinyanın əleyhinə işləyən əsas məqamlardan biridir və siyasi qüvvələr onun əleyhinə yönələcək digər arqumentlərdən də yararlanmağa çalışırlar. Belə məqamlardan biri də silahlı qüvvələrdə yaşanan problemlərdir. Ermənistanda bir qrup insan haqları müdafiəçiləri orduda baş alıb gedən özbaşınalıqlar və qeyri-döyüş itkilərini məhz belə bir vaxtda yenidən gündəmə gətirirlər.

"4rd.am" saytı yazır ki, Ermənistan ordusunda cəzasızlıq mühiti hökm sürür. Bir neçə gün əvvəl orduya yeni getmiş çağırışçı əsgərin özünü hərbi hissənin pəncərəsindən atması insidenti xatırladılıb. Vurğulanıb ki, bu məlumat sosial şəbəkələrdə yayılanda Müdafiə Nazirliyi əsgərin xidmət etmək istəmədiyinə görə özünü atdığını bildirdi. Amma belə deyil: "Hüquq müdafiəçiləri dərhal həmin əsgərin ailəsinə baş çəkdi, amma məlum oldu ki, bu deyilənlər yalandır. Həmin gənc orduya böyük həvəslə gedib. Orada onun başına nə oyun açıblar, məlum deyil. Bu, onu göstərir ki, Müdafiə Nazirliyi belə insidentlərin üstünün açılmasında maraqlı deyil. Qoy ictimai müzakirələr başlatsınlar, aydınlaşdırsınlar ki, çağırışçını bu vəziyyətə gətirib çıxaran səbəblər nədir. Bu insident bir daha göstərir ki, orduda cəzasızlıq atmosferi hökm sürür".

Ötən ilin dekabrında naməlum şəraitdə ölmüş yezidi müddətli hərbi qulluqçu Artur Acamyanın yaxınları isə Ermənistan hökuməti və parlamenti qarşısında etiraz aksiyası həyata keçiriblər. Anası Qohar Feroyan 9 aylıq mübarizədən sonra yeganə oğlunun ölüm səbəblərini müəyyənləşdirməyi tələb etmək üçün Ermənistan Baş naziri Nikol Paşinyana müraciət etmək qərarına gəlib.

Əsgər anası deyib ki, iki ay əvvəl Andranik Koçaryanla görüşmək üçün Ermənistan parlamentinə gedib, lakin deputat onu qəbul etməyib, hətta telefon zənglərinə cavab verməyib. Vurğulayıb ki, hazırda görüşmək və məsələni qaldırmaq istədiyi yeganə insan Ermənistanın baş naziridir: "Mən oğlumun niyə öldüyünü mənə söyləmələrini istəyirəm, səbəbini öyrənmək istəyirəm, niyə? Baş nazirin məni qəbul edib-etməyəcəyini, görüşüb-görüşməyəcəyini bilmirəm, amma bunun üçün addımlar atacam. Siçovullarla yaşayıram, qarşıda qış var, uşağımın şəkillərini götürüm hara gedim, nə edim? Heç olmasa bir otaq olsun, uşağımın şəkillərini yağışdan qoruyum".

Qeyd edilənlər pandemiya dövründə Paşinyan iqtidarının əleyhinə işləyən əsas faktorlar sırasında yer alır. Ermənistan daxilində son vəziyyətin təhlili burada hakimiyyətə qarşı narazılığın daha da artdığını göstərir. Proseslərin gedişi Nikol Paşinyan iqtidarının fərqli qüvvələrlə əvəzlənməsini istisna etmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ağdamda polis əməkdaşlarına qarşı zor tətbiq olunması ilə bağlı cinayət işi məhkəməyə göndərilib

İyulun 24-də Ağdam rayonunun Bənövşələr qəsəbəsi ərazisində xidməti vəzifələrini icra edən Ağdam Rayon Polis Şöbəsinin əməkdaşlarına qəsəbə sakinləri tərəfindən zor tətbiq edilməklə müqavimət göstərilməsi faktı üzrə Cinayət Məcəlləsinin 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddəsi ilə Ağdam Rayon Prokurorluğunda cinayət işi başlanaraq istintaq aparılıb.

Ağdam Rayon Prokurorluğundan AZƏRTAC-a bildiriblər ki, istintaqla həmin gün saat 20 radələrində rayonun Bənövşələr qəsəbəsi ərazisində döyülmə faktı barədə daxil olmuş məlumat əsasında hadisə yerinə getmiş Ağdam Rayon Polis Şöbəsinin istintaq-əməliyyat qrupunun üzvləri Niyazi Əhmədov, Mirhəmid Həşimov, Səyyar Həsənova xidməti vəzifələrini yerinə yetirərkən qəsəbə sakinləri Cavid Quliyev və Razi Naibov tərəfindən zor tətbiq edilməklə müqavimət göstərilməsinə əsaslı şübhələr müəyyən edildiyindən sonuncular Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə müvafiq ekspertizalar təyin edilib, hadisə yerinə baxış keçirilib, maddi sübutlar götürülüb, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə Ağdam Rayon Məhkəməsinə göndərilib.


## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 2 LOT üzrə keçirilir:**

LOT 1 - "BTR" MMC-nin xidməti ərazisində olan EATS-də internet xidmətləri şöbəsi platformasının sabit elektrik enerjisi ilə təmini üçün 2 qrup (hər birində 24 ədəd, cəmi 48 ədəd) akkumulyator batareyası və onun aksesuarlarının (bağlantı elementləri daxil olmaqla) satın alınması.

LOT 2 - "BTR" MMC-nin xidməti ərazisində olan EATS-lərdə stansiya və dizel generatorlar üçün akkumulyatorların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
LOT 1 - 250 (iki yüz əlli) manat (ƏDV daxil)
LOT 2 - 150 (bir yüz əlli ) manat (ƏDV daxil)
iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **02 oktyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **12 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **13 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***


# #prokurorluqdanizah həştəqi altında növbəti videoçarxda inzibati xətalarla bağlı suallara aydınlıq gətirilib

Prokurorluq orqanları dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşyönümlü və onu məmnun edən tədbirləri daim diqqət mərkəzində saxlayır.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaş məmnunluğunun və aşkarlığın təmin olunması məqsədilə prokurorluğun fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşları maraqlandıran məsələlərin prokurorluq əməkdaşları tərəfindən videoçarxlar vasitəsilə #prokurorluqdanizah həştəqi altında cavablandırılması həyata keçirilir.

Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə prokurorluq orqanlarında müraciətlərin qəbulu üzrə fəaliyyətlə bağlı "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror təsir tədbirləri nədən ibarətdir?", "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokurorun protest vermək hüququ varmı?", "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokurora şikayət verilə bilərmi?" suallarını cavablandırıb.

Təqdim olunmuş videoçarxı Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələrindən və veb-saytından da izləmək mümkündür.


## "Sumqayıt Kimya Sənaye Parkı" MMC yeni tədris ilinin başlanması ilə əlaqədar "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin nəzdində fəaliyyət göstərən Peşə Təhsil Mərkəzində və sənaye parkında daxili və xarici dizayn-tərtibat işlərinin satın alınması üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower"də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs Abbas Mamedov (telefon: 012-488-80-65)

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *kotirovka sorğusunda iştirak etmək üçün müraciət;*
- *iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanına təqdim edilmiş maliyyə hesabatının surəti;*
- *maliyyə imkanlarının, habelə ödəmə qabiliyyətinin olması barədə məlumat;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *işçi heyəti və onların ixtisası barədə sənədlərin surəti;*
- *satınalma predmeti üzrə təcrübəsi barədə təsdiq edilmiş məlumat;*
- *texniki imkanlar barədə məlumat;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.);*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **14 sentyabr 2020-ci il saat 12:00-dək** "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 sentyabr 2020-ci il saat 15:00-da** Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## "Azərsu" ASC

### *açıq tender elan edir*

"Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə subartezian quyularına quyu daxili materialların satın alınması

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr) və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).

Malgöndərənlər (podratçılar) müəyyən edilən iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tender təklifini dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **07 oktyabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **15 oktyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **16 oktyabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

Bu barədə düşünək

# Velosipedçi də hərəkət iştirakçısıdır

Atalarımız "Sonrakı peşmançılıq fayda verməz", - deyiblər. Əfsuslar olsun ki, bu müdrik kəlamdan istənilən kimi nəticə çıxarmır, atdığımız addımın, tutduğumuz işin nə ilə başa çatacağını düşünmürük.



Söhbət son zamanlar durmadan artan velosiped qəzalarından gedir. Yeniyetmə və uşaqlar şəhər yerlərindəki küçə və parklarda velosipedlərlə cıdır yarışına çıxıbmış kimi iki-bir, üç-bir, bəzən də qrup halında sürətlə belədən-belə şütüyürlər. Onlar axşam saatlarında istirahətə çıxan qoca, qadın və azyaşlı uşaqların yanından sürətlə keçərkən müxtəlif manevrlərlə adamlarda qorxu, həyəcan hissi yaradırlar. Bəzən xəsarət alanlar da olur. Nəqliyyatın sel suları kimi axıb getdiyi küçələrdə də velosiped sürənlər az deyildir. Rayon yerlərində isə daha təhlükəli mənzərə hökm sürməkdədir. Uşaqlar qəsəbə və kəndlərin, habelə rayon mərkəzlərinin ərazilərindən keçib gedən magistral şose yoluna çıxaraq sanki nəyə qadir olduqlarını göstərmək istəyirlər. Elə bu vaxt da onların bəziləri avtomobillərin yoluna çıxıb qəza vəziyyəti yaradırlar. Belə hallar isə çox zaman ölümlə nəticələnir. Bu yaxınlarda Salyan rayonundakı Şorsulu tam orta məktəbin 9-cu sinif şagirdi Ruslan Əsgərov axşam vaxtı yaxınlıqdan keçən şose yolunda velosiped sürərkən maşına çırpılaraq kəllə-beyin travması almışdır. Bakı şəhərinə - xəstəxanaya aparılsa da, onun həyatını xilas etmək mümkün olmamışdır. Cəlilabad rayonunun Sabirabad kəndində baş verən hadisə də dəhşətlidir. Həmin kənddə yaşayan Mehman Məmmədov idarə etdiyi "Mersedes-Bens C 180" markalı avtomobillə 13 iyul 2020-ci il tarixdə kəndin ərazisində hərəkətdə olarkən təzə-təzə velosiped sürməyi öyrənən 4 yaşlı Yusif Məmmədovu vurmuşdur. Bədəninin müxtəlif nahiyələrindən zədə alan balaca Yusif xəstəxanaya aparılarkən yolda keçinmişdir.

Biz əslində velosipedin əleyhinə deyilik. Məlumdur ki, velosiped sərfəli və sağlamlıq üçün lazımlı , ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsidir. Bir çox inkişaf etmiş ölkələrdə hətta yüksək çinli məmurların belə ondan istifadə etdikləri də heç kəsə sirr deyil. Lakin hər şeydən qaydasında istifadə etdikdə faydalı olur. Çoxlu sayda velosiped qəzalarının nədən yarandığını təhlil edərkən burada müxtəlif səbəblər ağıla gəlir. Bəlkə bu, koronavirus pandemiyası dövründə uşaqların məktəbə getmədikləri, onların asudə vaxtının bolluğu, valideynlərin övladlarına qarşı diqqətsizliyi, yol hərəkəti qaydaları haqqında maarifləndirmə işinin zəifliyi və ya heç olmadığı ucbatından yaranır? Artıq bu barədə ciddi düşünməyin vaxtıdır. Bəlkə də gecikmişik ki, bu qəzalar baş verir. Yalnız iki kəndin timsalında gördüyümüz bu faktlar digər rayonlarda da təkrar olunur. Hər birimiz də velosiped sürənlərin sayının gündən-günə çoxaldığını görürük. Hər bir valideyn, hər bir təhsil ocağı, ictimaiyyət və əlaqədar qurumlar bu barədə düşünməli, maarifləndirmə işləri aparmalıdırlar.

Bir vacib məqamı unutmayaq: velosipedçi də hərəkət iştirakçısıdır. Odur ki, yol hərəkəti qaydalarını bilməli və ona düzgün əməl etməlidir. Belədə həm özünü qoruyar, həm də qəzaların qarşısı alınar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN"

qəzetinə abunə yazılışı kampaniyası davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (070) 244-17-34 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 564-63-45, (050) 214-04-05 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

Hörmətli oxucular!
Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.

ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

Təkrar

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti
açıq tender elan edir

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 1752 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 02 iyul tarixli 2138 nömrəli Sərəncamının icrası məqsədilə "Pirşağı Tullantı Sutəmizləyici Qurğusunun gətirici kanalizasiya kollektorlarının tikintisi. **(Pirşağı-Kürdəxanı-Zabrat kollektoru)**" işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentindən (Əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: + 99 412 431-47-67/87 - daxili: 1033, E-mail: **i.tagiyev@azersu.az** və Novruzov İntizam Cəmil oğlu, telefon: + 99 412 431 47 67/87 - daxili 3019, E-mail: **intizam.novruzov@azersu.az** ) ala bilərlər.

**Tenderdə iştirak haqqı: 500 (beş yüz) AZN**

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı ilkin uyğunluq sənədlərini təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 3 ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (hər il üçün ən azı 10 milyon manatlıq dövriyyə tələb olunur);*
- *iddiaçının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *son üç ili əhatə edən audit hesabatı;*
- *iddiaçının işçi heyəti, avadanlığı və texnikası barədə məlumat;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05 oktyabr 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **14 oktyabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentinə təqdim etməlidirlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İştirakçıların təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **15 oktyabr 2020-ci il saat 16:00-da** açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Nigerdə sel və daşqın qurbanlarının sayı 65-ə yüksəldi



Nigerdə leysan yağıntılarının törətdiyi sel axınları və sel daşqınları nəticəsində ölənlərin sayı 65-ə yüksəlib.

Qərbi Afrika ölkəsinin Fövqəladə Hallar Nazirliyindən bildiriblər ki, ümumilikdə təbii fəlakətdən Maradi, Tahua, Tillaburi və Dosso rayonlarının 329 min 958 sakini zərər çəkib. Bundan əlavə, paytaxt Niamey də fəlakət zonasındadır.

Ümumilikdə 5 768 hektar əkin sahəsi su altında qalmış, 34 min yaşayış binası yararsız vəziyyətə düşmüşdür.

Qərbi Afrikada leysan yağışları mövsümü iyun ayında başlayır və sentyabr ayına qədər davam edir.

## Meksikada jurnalistin başsız cəsədi tapılıb



Meksikanın Verakrus əyalətində "Diario el Mundo" nəşrinin qətlə yetirilmiş jurnalistinin cəsədi tapılıb. Bu, peşəkar fəaliyyətlə bağlı bir il ərzində dördüncü jurnalistin qətlə yetirilməsidir.

Yerli KİV-in məlumatına görə, kriminal xəbərlər şöbəsinin müxbirinin başsız bədəni Paraiso icmasının yaxınlığında yerləşən ştatın dağlıq ərazidəki dəmir yollarında aşkar olunub.

Verakrus əyalətində kütləvi informasiya vasitələri əməkdaşları arasında ən çox qətl sayı qeydə alınıb. 2000-ci ildən orada 29 jurnalist öldürülüb.

## ABŞ-ın İraqdakı kontingenti azalacaq



ABŞ sentyabrın sonunadək İraqda hərbi kontingenti üçdə bir qədər azaldacaq. Bu barədə ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) başçısı general Kennet Makkenzi məlumat verib.

O, jurnalistlərə bildirib ki, bu ay İraqda Amerika hərbçilərinin sayı təxminən 5,2 mindən 3 minə qədər azalacaq. Makkenzinin sözlərinə görə, qalan ABŞ hərbçiləri İraq təhlükəsizlik qüvvələrinə İŞİD terrorçu qruplaşmasının son ocaqlarının məhv edilməsində yardımlarını davam etdirəcək.

Daha əvvəl Amerika administrasiyasının nümayəndəsi jurnalistlərə bildirib ki, ABŞ çərşənbə günü İraqda hərbi kontingentinin sayının azalacağını bəyan edəcək. O, həmçinin əlavə edib ki, yaxın günlərdə Əfqanıstanla da bağlı bəyanat veriləcək.

## İran Ərəbistan dənizində hərbi təlimlərə başladı



İran hərbi hava qüvvələri, hərbi dəniz qüvvələri və quru qoşunlarının iştirakı ilə Hörmüz boğazı və Ərəbistan dənizində irimiqyaslı hərbi təlimlərə başlayıb. Bu barədə İİR-ın dövlət telekanalı xəbər verir.

Məlumata görə, üçgünlük "Zülfüqar-99" təlimləri çərçivəsində "yer-yer" və "yer-hava" tipli qanadlı raketlərin, həmçinin pilotsuz uçuş aparatlarının sınaqları planlaşdırılır.

İran ordusu təlim zonasında istənilən uçuş obyektini, o cümlədən regionda informasiya yığımı ilə məşğul olan ABŞ-ın pilotsuz uçan aparatlarını vurmağa hazır olduğunu bəyan edib.

## Yunan polisi Lesbosda miqrantları gözyaşardıcı qazla dağıtdı



Yunanıstanın Lesbos adasında miqrantlar düşərgəsində yanğın baş verdikdən sonra iğtişaşlar başlayıb. Bu barədə "Open" telekanalı xəbər verir.

Məlumata görə, yanmış düşərgədən olan miqrantlar Mitilini şəhərinə və limana getməyə çalışıblar. Polis xüsusi təyinatlıları onları şəhərə buraxmamaq üçün gözyaşardıcı qaz tətbiq edib. Bildirilir ki, miqrantlar yolboyu otları yandırırlar. Cümə axşamı adaya əlavə polis qüvvələri, həmçinin miqrantların bir hissəsinin yerləşdiriləcəyi gəmilər gələcək. Qalanlar üçün çadırları adaya çatdıracaqlar. Lesvosda fövqəladə vəziyyət rejimi elan edilib. Rejim 4 ay davam edəcək.

Xatırladaq ki, bir müddət əvvəl adada ölkədə miqrantların və qaçqınların ən iri qəbul və identifikasiya mərkəzi yanıb. 12,8 min nəfər evsiz qalıb. Yanğın düşərgədə koronavirusa 35 yoluxma hadisəsi barədə məlumat verildikdən dərhal sonra başlayıb.

## Türkmənistana ilk dəfə Çindən ən uzun konteyner qatarı gəlib

Çindən gələn ən uzun konteyner qatarı ilk dəfə Qazaxıstan ərazisindən tranzit keçməklə Türkmənistana gəlib. Çinin Çindao şəhərindən iki həftə əvvəl yola çıxan 40 futluq konteynerdən ibarət yığma yüklə 48 ədəd konteyner qatarı Altınkol-Bolaşak marşrutu üzrə hərəkət edərək Türkmənistanın Qazaxıstanla sərhəddə yerləşən Sərhədyaka stansiyasına çatıb.

Ümumilikdə 8780 kilometr qət edəcək qatar 12-15 gün ərzində yükün təyinat məntəqəsinə çatdırılmasını təmin edir.

Qeyd edək ki, Çindən Xəzər dənizinə konteyner xəttinin işə salınması "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin bir qolu olan "Qazaxıstan-Türkmənistan-İran" dəmir yolunun fəaliyyəti nəticəsində mümkün olub.

Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.09.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 44 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 44 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Qarabağ saatı" verilişi yayıma başladı




Diasporla İş üzrə Dövlət Komitəsi dünya azərbaycanlılarının və beynəlxalq ictimaiyyətin Qarabağ həqiqətləri ilə bağlı daha müfəssəl məlumatlandırılması üçün yeni TV layihələri həyata keçirir.

AZƏRTAC xəbər verir ki, bu silsilədən olan "Qarabağ saatı" verilişinin ilk buraxılışı yayımlanıb. Veriliş Dağlıq Qarabağ Muxtar Vilayətinin hansı məqsədlə yaradılması məsələsinə həsr olunub. Verilişdə xaricdə yaşayan azərbaycanlı gənclərin sualları cavablandırılıb.

Diaspor TV-də, komitənin sosial media resurslarında və "Qarabağ Azərbaycandır" milli platformasının "YouTube" kanalında yayımlanan proqram Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən Qarabağ Araşdırmaları Mərkəzi ilə birgə hazırlanır. Tarixi fakt və sənədlərlə zəngin olan "Qarabağ saatı" verilişini siyasi elmlər doktoru, professor Elçin Əhmədov təqdim edir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Həbib Həsənova atası

**NAMİQ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7527
Sifariş 2110
Qiyməti 40 qəpik